

## Rusiyalı professor: “Ermənilər bu xəbərdarlığa məhəl qoymadılar”

3

Səs
№ 056 (6497) 2 aprel 2022-ci il. Qiymәti 60 qәpik

3

## 4 Aprel döyüşlərinin davamı: 44 günlük Vətən müharibəsi və QƏLƏBƏ!



*Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı Aprel döyüşlərindən 6 il ötür. 2016-cı il, aprelin əvvəllərində Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan ordusu əks-hücum əməliyyatı keçirdi və düşməni ağır məğlubiyyətə uğratdı. Bir sözlə...*

# Brüssel gözləntiləri: məğlubun qalib qarşısında diz çökməsi labüdlükdür!

4



Ermənistan tərəfinin yalnız tərəddüddə qalması deyil, həm də haçalı bəyanatlar səsləndirməsi istər-istəməz suallar doğurur ki, ümumiyyətlə, İrəvan Bakı ilə böyük sülh sazişini imzalamağa hazırdırmı?

***Məlum olduğu kimi, aprelin 6-da Avropa İttifaqının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşün keçirilməsi nəzərdə tutulub. Lakin daha bir fakt budur ki, Ermənistanın baş naziri bir tərəfdən ölkəsində oturub Azərbaycana qarşı sərsəm ittihamlar səsləndirir, eləcə də guya üçtərəfli bəyanatın pozulması barədə fikirlər bildirir, digər tərəfdən isə istər xarici işlər naziri Ararat Morzoyan, istərsə də parlamentin sədri Alen Simonyan müxtəlif xarici toplantılarda sülhə hazır olduqlarını bildirirlər.***

## “Minalar münaqişələr bitdikdən sonra on illiklər boyu sülhə, inkişafa böyük əngəl törədir"

4



*"Minalar, müharibənin partlamamış hərbi qalıqları münaqişələr bitdikdən sonra on illiklər boyu sülhə, inkişafa böyük əngəl törədir."*

## Azərbaycanda bu ərzaq məhsulları ilə bağlı yeni QADAĞA qüvvəyə minir



## İsrailli politoloq erməni ittihamlarını darmadağın etdi!

10



Mixail Finkel sərt danışdı: "Qarabağdakı məscidləri donuzxanalara və mal tövlələrinə döndərən kimdir? Kim azərbaycanlıların bir çox qəbirlərini dağıdıb? Kim bütün Qarabağda milyonlarla ...

## “Hraparak” nəşri: “Paşinyan alçaldıcı sülh müqaviləsi imzalamağa hazırlaşır”

4

Ermənistanın “Hraparak” qəzeti yazır ki, ölkənin baş naziri Nikol Paşinyan Azərbaycanın bütün tələblərini yerinə yetirməyə hazırlaşır.





## Rusiyanın qazı rubl ilə satması NƏLƏRƏ SƏBƏB OLACAQ?

10

*"Rusiyanın qazını rubla satması olduqca inqilabi bir qərardır". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Aslan Əzimzadə bildirib...*



## Sağlam beyin üçün nə etməliyik?

16

Hamımız psixi sağlamlığımızı qorumaq və həyatımız boyu zehni fəaliyyətimizi ən yüksək səviyyədə saxlamaq istəyirik. Sağlam beyin üçün...

# 4 Aprel döyüşlərinin davamı : 44 günlük Vətən müharibəsi və QƏLƏBƏ!

***Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı Aprel döyüşlərindən 6 il ötür. 2016-cı il, aprelin əvvəllərində Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan ordusu əks-hücum əməliyyatı keçirdi və düşməni ağır məğlubiyyətə uğratdı. Bir sözlə...***

### 4 APREL - BÖYÜK ZƏFƏRƏ GEDƏN YOLUN BAŞLANĞICI

Bəli, elə həmin gündən BÖYÜK ZƏFƏRƏ gedən yol başlandı. Qarabağa aparan işıqlı və inamlı yolumuz da elə o gündən başladı. 2016-cı il 1 aprel gecəsindən. O gecə şanlı ordumuz illərin sükutunu pozaraq, düşmənə kimliyimizi, mənlik və mərdliyimizi necə lazımdır sübut etdi. 2016-cı il aprelin 2-də quduzlaşmış Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin, minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçərək, Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə 24 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı. Bu sevinc, bu qələbə güclü ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu, proqmativ siyasətinin nəticəsində əldə olundu. Çünki güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Və aprelin 2-dən başlayaraq Ermənistanın hərbi hissələrinin təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin bütün cəbhəboyu mövqelərini iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutaraq qoşunların təmas xəttində növbəti təxribatların uğurla qarşısının alınması, məhz müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlarının, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusunun olmasının nəticəsidir. Daha dəqiq desək, Azərbaycanın şanlı silahlı qüvvələrinin cəbhədə əldə etdiyi zəfərləridir.

Əslində, bu, gözlənilən idi. Çünki uzun müddət idi ki, işğalçı Ermənistan rəhbərliyi, bu rejimin Qarabağdakı yedəyi - "Dağlıq Qarabağ Respublikası" separatçıları zaman-zaman özlərinə güvənən bəyanatlarla çıxış edir, "qüdrətli və məğlubedilməz erməni ordusu"nun imicini reklam etməklə siyasətdəki yerlərini möhkəmləndirməyə çalışsalar da, yenə də Azərbaycan ordusu onları zamanında yerlərinə oturtdu və dərslərini verdi. Ordumuzun qəti zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı. Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılması təmin edildi.



**İlham Əliyev: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir"**



Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülüb, orden və medallarla təltif ediliblər. "Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir",- deyən dövlət başçısı bildirmişdir ki, Aprel döyüşləri Azərbaycan xalqının və Ordusunun tarixi ərazilərimiz olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu düşmənlə yanaşı, bütün dünyaya sübut etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun Aprel qələbələrinin ildönümü ilə əlaqədar martın 31-də bir qrup hərbçimizlə görüşdə deyib: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir".

Həqiqətən də, dövlətimizin başçısının dediyi kimi, Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, Azərbaycan Ordusu təmas xəttində mövcud vəziyyətə tam nəzarət etsin və lazımi tədbirləri görə bilsin.

### APREL DÖYÜŞLƏRİ "BÖYÜK QAYIDIŞ"A START VERDİ

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinə start verilməsi oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı.

***Ardı Səh. 3***



# 4 Aprel döyüşlərinin davamı : 44 günlük Vətən müharibəsi və QƏLƏBƏ!

## İlham Əliyev: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir"







**Əvvəli-Səh-2**

Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə "Böyük Qayıdış" prosesinə start verildi. Artıq bu kəndin əhalisinin 24 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına bütün xalqımızda dərin inam yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təmas xəttinə gedərək, Ermənistan ordusunun atəşləri nəticəsində yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və Ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Aprel döyüşlərinin əhəmiyyəti barədə dediyi sözlər bu qələbənin Ordumuz və xalqımız üçün önəmini açıq şəkildə ifadə edir: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün, həmişə olduğu kimi, birinci yerdə duran prioritet məsələdir". Ölkə Prezidenti, həmçinin onu da bildirdi ki, Ermənistan nə qədər ki, təxribatçı əməllərə əl atacaqsa, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq: "Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq". "Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun"-deyən dövlət başçısı bildirdi ki, bizə qarşı yenə təxribat törədilərsə, onlar yenə də öz cəzalarını alacaqlar.

### BƏLİ, ALDILAR. 2020-Cİ İL - ALİ BAŞ KOMANDANIN XALQA BƏXŞ ETDİYİ QARABAĞ AZƏRBAYCANDIR!

"Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi - "Qarabağ Azərbaycandır və nida" Ürəyimizdə qübar edən bir problemimiz - düşmən işğalında olan Qarabağımızın niskilinə son qoyuldu. 30 ilə yaxın idi ki, dilimizdən düşməyən gün o gün olsun ki... arzusu ilə yaşayırdıq, xiffətini çəkdiyimiz ata-baba torpaqlarına böyük qayıdışın arzusu, xəyalı ilə yaşayırdıq. Nəhayət, sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı, bütün cəbhəboyu ağır artilleriyadan istifadə etməklə hücuma keçməsi və birbaşa mülki əhalini hədəfə alması nəticəsində Azərbaycan Ordusu Vətən uğrunda ölüm-dirim savaşına qalxdı. 30 illik həsrətə düz 44 gün ərzində Qarabağ münaqişəsinə Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının diplomatik siyasəti və rəhbərliyi ilə "İRƏLİ!" göstərişi ilə güclü Ordumuzun, Müzəffər əsgər və zabitlərimizin rəşadəti ilə Qarabağ Azərbaycandır! nidasını qoydu.

Dövlət başçımız İlham Əliyev cənabları çıxışlarında da dönə-dönə vurğulayır ki, bu Qələbə Azərbaycan Ordusunun gücünü göstərdi: "Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz".

Bəli, 30 ilə yaxın zaman müddətində həll olunmayan qondarma "Dağlıq Qarabağ" probleminin 44 gün ərzində həll olunması ilə 2020-ci il tariximizə Qələbə ili ilə Azərbaycan tarixinə yazıldı. Bu, haqqın qələbəsidir. Bu, Azərbaycan xalqının qələbəsidir. Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilən tarixi qələbəsidir! Bu, 44 günlük ZƏFƏR QƏLƏBƏSİ idi. Bu, Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev dediyi kimi: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

**RƏFİQƏ KAMALQIZI**

---

# Rusiyalı professor: "Ermənilər bu xəbərdarlığa məhəl qoymadılar"

***Şəxsən mənim üçün Qarabağda 44 günlük azadlıq müharibəsi gözlənilən idi. Hələ 2015-ci ilin payızında bir müsahibəmdə Quranın bir surəsindən sitat gətirmişdim: "Sizə döyüş vacib edildi, əgər sizə qarşı döyüşürlərsə". Müəyyən edilmiş döyüşdə qalib gəlmək lazım idi. Hazırlaşılmalı idi. Bütün bunlar qüsursuz həyata keçirilib.***

SİA xəbər verir ki, bunu Caliber.Az-a müsahibəsində rusiyalı professor, mədəniyyət elmləri doktoru, Rusiya Yazıçılar Birliyinin üzvü, Rusiya Təbiət Elmləri Akademiyasının akademiki, "Qarabağın qanlı hovuzu" kitabının və "Qarabağ gündəliyi" trilogiyasının müəllifi Yuri Aleksandroviç Pompeyev bildirib.

"Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Heydəroviç Əliyev dahi strateq və taktikaçıdır. Müasir üsullarla aparılan bu müharibə bu gün artıq dünyanın bir çox hərbi akademiyalarında öyrənilir. Sülhsevər Azərbaycan xalqı döyüşlərə vətənpərvərliklə reaksiya verdi. Təbii ki, mən də bu döyüşlərin gedişatını izlədim və Azərbaycan xalqı arasında itkilərə görə başsağlığı verdim.

Bəlalardan biri də bu zəngin bölgənin- Qarabağın tamamilə məhv olması, xüsusən də fasiləsiz mədən işlərinin aparılmasıdır. İşğal olunmuş torpaqları məhvə məhkum edən işğalçılar belə davranırlar. Zori Balayan, Silva Kaputikyan kimi erməniizm ideoloqlarına bu torpaqlar əkin üçün lazım idi, onlar belə düşünürdülər: onsuz da biz Çinə çevrilməyəcəyik. Yadımdadır, hələ 1980-ci ildə Leninqrad yazıçısı Fyodor Abramov S.Kaputikyanın kitabına yazdığı icmalda xəbərdarlıq edirdi ki, "bu yanaşma millətçiliyə, hətta nasizmə çevrilə bilər, sonrası isə başqa xalqlar üçün dinamit anbarıdır, zəlzələdir, nəhayət, bu bəla bətnindən çıxdığı xalqın özü üçün də



bədbəxtliyə və faciəyə çevrilə bilər". Ermənilər bu xəbərdarlığa məhəl qoymadılar. Bu, o demək deyil ki, iki müharibə edən xalq arasında əməkdaşlıq gələcəkdə mümkün deyil. Hər iki tərəfdən çox səy göstərilməlidir, lakin əsas odur ki, şər şər kimi, yaxşılıq və sevgi isə həyatın əbədi mahiyyəti kimi tanınsın".

Eyni zamanda, "Qarabağın Qanlı Hovuzu" kitabının müəllifi etiraf edib ki, o, həqiqətən də Ermənistanın işğalından azad edilmiş Azərbaycan ərazilərinə səfər etmək istəyir.

"Mən 2011-ci ildən Azərbaycanda olmamışam və təbii ki, işğaldan azad edilmiş ərazilərə səfər etməyi arzulayıram. Mən Şuşaya, xarabalığa çevrilmiş, indi yenidən qurulmuş Ağdama, Xocalıya baş çəkmək istəyirəm. Bütün bunlar mənim üçün ən yaxın tarixin və yazımın bir zərrəsinin qaldığı yaddaqalan yerlərdir. Ətrafda getdikcə zəifləmiş gözlərim önündə görünən unudulmaz mənzərələr var. Allah eləsin səfərin baş tutsun və xeyirli olsun. Amma bu, daha çox məndən deyil, yenicə güclənən Azərbaycandan asılıdır. Azərbaycan xalqına ən yaxşısını arzulayıram! Xoşbəxt olun!", - Yuri Pompeyev deyib.

***Tərcümə - Elçin Bayraml***

# Brüssel gözləntiləri: məğlubun qalib qarşısında diz çökməsi labüdlükdür!



**Ermənistan tərəfinin yalnız tərəddüddə qalması deyil, həm də haçalı bəyanatlar səsləndirməsi istər-istəməz suallar doğurur ki, ümumiyyətlə, İrəvan Bakı ilə böyük sülh sazişini imzalamağa hazırdırmı?**

Məlum olduğu kimi, aprelin 6-da Avropa İttifaqının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşün keçirilməsi nəzərdə tutulub. Lakin daha bir fakt budur ki, Ermənistanın baş naziri bir tərəfdən ölkəsində oturub Azərbaycana qarşı sərsəm ittihamlar səsləndirir, eləcə də guya üçtərəfli bəyanatın pozulması barədə fikirlər bildirir, digər tərəfdən isə istər xarici işlər naziri Ararat Morzoyan, istərsə də parlamentin sədri Alen Simonyan müxtəlif xarici toplantılarda sülhə hazır olduqlarını bildirirlər. Söz yox ki, Ermənistan tərəfinin yalnız tərəddüddə qalması deyil, həm də haçalı bəyanatlar səsləndirmələri istər-istəməz suallar doğurur ki, ümumiyyətlə, İrəvan Bakı ilə böyük sülh sazişini imzalamağa hazırdırmı?

ANALİTİK-AKTUAL

### Bu fakt isə əlbəttə ki, rəsmi Bakını nəinki narazı edir, həm də hiddətləndirir!

Onu da qeyd edək ki, bugünə qədər istər Rusiyanın, istərsə də Avropa İttifaqının vasitəçilikləri ilə bir neçə görüşlər keçirilib. Amma bu görüşlərdə əldə edilən ilkin razılıqlar dəfələrlə Ermənistan tərəfindən pozulub. Bu fakt isə əlbəttə ki, rəsmi Bakını nəinki narazı edir, həm də hiddətləndirir. Ona görə də növbəti Brüssel görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin konkret şərtlər ortaya qoyaraq həm də Nikol Paşinyana vaxt verəcəyi istisna edilmir.

Digər tərəfdən, bu kimi qəti və sərt tələblər onsuz da dalana söykənmiş İrəvanın Azərbaycanla yekun sülh sazişinin imzalanması istiqamətində birdəfəlik boyun əyməsi ilə nəticələnə bilər. O cümlədən, xatırlatmaq olar ki, Azərbaycan bir müddət əvvəl Ermənistana 5 maddəlik sülh təklifi verib və bu yaxınlarda MDB ölkələrinin parlament sədrləri arasında keçirilən iclas zamanı Ermənistan parlamentinin sədri Alen Simonyan həmin təkliflərin qəbuledilən olduğunu bəyan edib. Yəni ola bilsin ki, bu kimi mövqelər Ermənistanın sülhə hazır olması elə təsəvvürünü yarada bilər.

### Minsk qrupu ən yaxşı halda Azərbaycan və Ermənistan arasında poçtalyon vəzifəsini icra edə bilər

Ancaq daha bir ehtimal budur ki, Ermənistan həmin vasitə ilə sadəcə vaxt uzatmağa cəhdlər edir. Daha dəqiq desək, prosesə ATƏT-in Minsk qrupunu fəal olaraq qatmağa çalışır.

Məsələ həm də ondadır ki, Ermənistan-Azərbaycan, Qarabağ münasqişəsinin davam etdiyi 30 il boyunca sülhün qazanılması üçün heç bir səmərəli işlər görə bilməyən, üstəlik müxtəlif platformalarda məhz İrəvanın mövqeyini bu və ya digər şəkildə dəstəkləyən qrup bundan sonra hər hansı təklifləri ilə Bakı qarşısında inam, etibar qazana bilməz və bu barədə dövlətimizin başçısı da dəfələrlə öz çıxışlarında sərt şəkildə vurğulayıb. Minsk qrupu ən yaxşı halda Azərbaycan və Ermənistan arasında poçtalyon vəzifəsini icra edə bilər və ondan o tərəfə deyil...

Azərbaycanın təkliflərinə gələndə isə Bakının qeyd etdikləri kifayət qədər obyektiv və ədalətlidir. Delimitasiya və demarkasiya prosesindən tutmuş digər şərtlərə qədər Ermənistanın heç bir suveren maraqlarına toxunulmur, üstəlik, İrəvan üçün gələcək inkişafda yeni qapıların açılması mümkünlüyü də təklif edilir. Əgər İrəvan bu təkliflərlə razı deyilsə, el dili ilə desək, özü-özündən küsməlidir. Və bunu əlbəttə ki, Avropa dairələrində də, Rusiyada da yaxşı bilirlər, dərk edirlər.

Yuxarıda da qeyd etdiyimiz kimi, Ermənistanın baş naziri Nikol Paşinyanın ötən dəfə Avropa İttifaqı ilə baş tutan görüşdə sərhədlərin delimitasiya və demarkasiyana razı olduğunu bildirməsi ilə indiki mövcud fikirləri ümumiyyətlə üst-üstə düşmür. Yəni biz Ermənistan tərəfindən bununla bağlı hansı müsbət yönlü addımların atıldığını müşahidə etmirik. Nikol Paşinyan ümid edir ki, onu qurtaracaq yeganə siyasi mərkəzlər məhz ATƏT-in Minsk qrupunun iki həmsədr ölkələri - ABŞ və Fransa olacaq. O, Rusiyanın da ətəyindən "saman çöpündən yapışan qarşıqa" təsirini bağışlayır. Amma onun belə düüşünməsi də əslində dayaz siyasətçi olmasından xəbər verir. Azərbaycan onsuz da öz hərbi gücü hesabına torpaqlarını işğaldan azad edib və Minsk Qrupunun 30 il müddətində bacarmadığını 44 gün ərzində reallaşdırıb.

### Fərrux istiqamətindəki əhəmiyyətli strateji yüksəkliklərin düşməndən təmizlənməsi prosesinin həyata keçirilməsi isə hələ ki, qığılcımlardır...

Bakı özünün qətiyyətli və güclü mövqeyini möhkəmləndirir, ərazilərini daha inamla və qətiyyətlə qoruyur, beynəlxalq dəstək bu gün də alınmaqdadır, üstəlik, ərazilərimizdə qalan separatçı tör-töküntülərin, habelə qanunsuz erməni silahlı birləşmələrinin çıxarılması funksiyasını həyata keçirir və bütün bunlar hələ cücərtilərdir. Əgər Ermənistan Azərbaycanın tələbləri, şərtləri qarşısında necə deyərlər, cığallıqlar edəcəksə, bu zaman dövlət başçımızın da dediyi kimi, 44 günlük müharibədən daha sərt zərbələr altında qalmalı olacaq. Bu günlərdə Fərrux istiqamətindəki əhəmiyyətli strateji yüksəkliklərin düşməndən təmizlənməsi prosesinin həyata keçirilməsi isə hələ ki, qığılcımlardır...

Bəli, Azərbaycanın atdığı təsirli, qətiyyətli və barışmaz addımları xalqın marağından çıxış edir və hələ də sülhə imza atmayaraq bizimlə düşmənçilik edən Ermənistanı sülhə məcbur edir. Aprelin 6-da isə Brüsseldə olacaq Nikol Paşinyan İlham Əliyev qarşısında qəti, nəticəli öhdəlik götürməyə məcburdur. Ermənistanın Brüssel görüşündə Azərbaycanın irəli sürdüyü sülh təklifləri üzrə Ermənistanın yekun sülh sazişi bağlamaqdan başqa yolu yoxdur. Məğlubun qalib qarşısında diz çökməsi labüdlükdür!

**Rövşən RƏSULOV**

# "Minalar münaqişələr bitdikdən sonra on illiklər boyu sülhə, inkişafa böyük əngəl törədir"

***"Minalar, müharibənin partlamamış hərbi qalıqları münaqişələr bitdikdən sonra on illiklər boyu sülhə, inkişafa böyük əngəl törədir."***

Bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev aprelin 1-də Bakıda keçirilən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və BMT-nin İnkişaf Proqramının (UNDP) birgə təşkilatçılığı ilə "Humanitar minatəmizləmə fəaliyyəti və dayanıqlı inkişaf məqsədləri" mövzusunda konfransda çıxışı zamanı söyləyib.

"Münaqişədən sonrakı dövrdə minaların təmizlənməsi önəmli problem olaraq qalır. Azərbaycan əraziləri işğaldan azad olunandan sonra minalardan və partlamamış hərbi sursatlardan çirklənmə baxımından dünyada ən yüksək yerlərdən birini tutur. Hazırda ərazilərimizdə ağaclar əvəzinə minalar var. Əlbəttə ki, Azərbaycan hökuməti bunun əksini edəcək", - deyə Hikmət Hacıyev vurğulayıb. H.Hacıyev daha sonra bildirib ki, Azərbaycan hökumətinin əsas məqsədi vətəndaşların öz doğma yurdlarına təhlükəsiz şəkildə qayıtmasıdır. Bu qayıdışın hansı müddətdə baş verməsi ərazilərin minalardan təmizlənməsindən asılıdır.



H.Hacıyev bildirib ki, işğaldan azad olunmuş ərazilərdə indiyədək 30-dan çox şəxs minaya düşərək həlak olub. Ermənistan Azərbaycana minalanmış ərazilərin xəritələrini təqdim etsə də, bunun dəqiqliyi 25 faiz təşkil edir.

# "Hraparak" nəşri: "Paşinyan alçaldıcı sülh müqaviləsi imzalamağa hazırlaşır"

***Ermənistanın "Hraparak" qəzeti yazır ki, ölkənin baş naziri Nikol Paşinyan Azərbaycanın bütün tələblərini yerinə yetirməyə hazırlaşır. O cümlədən, bildirilir ki, Paşinyanın sülh sazişinə imza atması ehtimalı artdıqca Ermənistanın suverenliyinin itirilməsi prosesi daha da sürətlənir. Qəzet, sazişin erməni xalqı və dövləti üçün alçaldıcı olduğunu bildirib.***



"Paşinyan Ermənistan hökumətinin iclası ərəfəsində aydın şəkildə çatdırdı ki, müharibədən qaçmağın yalnız bir vasitəsi var - bütün tələblərə riayət etməklə Azərbaycana təslim olmaq, alçaldıcı sülh sazişini imzalamaq", deyə erməni nəşri yazır.

Xəbərə əlavə olaraq adıçəkilən erməni nəşrinə sual edilə bilər ki, Ermənistanın başqa yolu varmı? Yaxud, İkinci Qarabağ müharibəsinə qədər Ermənistanın işğalçılıq siyasəti mövcud olarkən nəyə görə bu ölkənin əvvəlki və indiki rəhbərlikləri bu barədə düşünməyərək acı aqibətlərinin çox yaxında dayana biləcəyinin fərqinə varmayıblar?

# Qarşılıqlı etimada əsaslanan Azərbaycan-Çin əlaqələri

## Dövlətlərarası diplomatik əlaqələrin qurulmasından 30 il ötür



***Azərbaycan müstəqillik illərində dünya ölkələri ilə əlaqələrinin inkişafını diqqətdə saxlayıb, dövlətlərarası münasibətlər yeni mərhələyə yüksəlib. Azərbaycan ilə dünyanın bir çox ölkələri arasında imzalanan sənədlər, ölkələr arasında münasibətlərin daha da genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açıb. Bu əlaqələr dostluq, qarşılıqlı münasibətlərə söykənir.***



Azərbaycanın iştirakçısı olduğu görüşlər, təşəbbüsləri, beynəlxalq layihələri ölkəmizin nüfuzunun artdığının və etimadının yüksəldiyinin daha bir göstəricisidir. Bu münasibətlər dostluq, qarşılıqlı anlaşmaya söykənir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsahibələrinin birində ölkələrlə, qonşularımızla, tərəfdaşlarımızla qarşılıqlı əlaqə baxımından uğurlu siyasətin, bəzən tarazlaşdırılmış siyasətin səbəblərindən birinin Azərbaycan dövlətinin hər zaman işinə sadiq olduğunu vurğulayıb: "Bəzən bizim tərəfdaşlar, qonşularımız bizimlə razılaşmaya bilər. Bəzən bizim işlərimiz onların xoşuna gəlməyə bilər. Lakin onlar həmişə bilirlər ki, biz dediyimizi həmişə edirik. Onlar bilirlər ki, imzamızla sözümüz eynidir. Biz heç vaxt heç kimi məyus etməmişik. Buna görə də bu, artıq etimad məsələsidir və Azərbaycan böyük etimad qazanan ölkədir Biz, sadəcə, daha yaxşı münasibətlər qurmaq, daha çox iş görmək, insanlarımıza daha yaxşı şərait qurmaq istəyirik", sülh və harmoniya içində yaşamaq istəyirik".

Müasir dövrümüzdə böyük tərəqqi yolu keçən və Zəfər qazanan Azərbaycan dinamik inkişaf edən və bütün dünyada hörmət olunan ölkəyə çevrilib. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Azərbaycana qısa müddətdə inanılmaz nailiyyətlər qazandıran siyasəti dünya ölkələrində böyük maraqla izlənilir. Azərbaycanda bütün sahələrin inkişafı ilə yanaşı, beynəlxalq münasibətlər, diplomatik əlaqələr uğurla inkişaf edir. Bu gün Azərbaycanın bir çox dünya ölkələri ilə yanşı, Çinlə də əlaqələri uğurlu inkişaf yolundadır. Dünyanın ən böyük dövlətlərindən olan Çinlə Azərbaycan arasında diplomatik əlaqələr 1992-ci ilin aprel ayının 2-də qurulmuşdur. Azərbaycan Respublikası yarandıqdan sonra onun müstəqilliyini tanıyan ilk ölkələrdən biri də Çin Xalq Respublikası olub. Milli Məclisin qərarı ilə 1993-cü il 3 sentyabrda Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfirliyinin açılmasını qərarlaşdırıb.

### QARŞILIQLI FAYDALI TƏRƏFDAŞLIQ VƏ DOSTLUQ PRİNSİPLƏRİ ƏSASINDA ƏMƏKDAŞLIQ

Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının dünya dövlətləri, xüsusilə Çin Xalq Respublikası kimi qüdrətli ölkə tərəfindən tanınması mühüm əhəmiyyət kəsb edir. Bu əlaqələrin inkişaf və möhkəmlənməsində Ulu Öndər Heydər Əliyevin rolu əvəzsizdir. Belə ki, 1994-cü il 7-10 mart tarixində Ulu Öndər Heydər Əliyev Çin Xalq Respublikasında rəsmi səfərdə olmuşdur. Prezident Çin Xalq Respublikasının Sədri Tszyan Tszemin, Baş naziri Li Pen ilə rəsmi görüşlər keçirib. Səfər zamanı iki dövlət arasında səkkiz müqavilə imzalanmışdır. Çin Azərbaycanla münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət vermiş və bütün sahələrdə dostcasına əməkdaşlığın daha da genişləndirilməsi üçün addımlar atılmışdır. Pekinlə Bakı arasında diplomatik münasibətlər yaradılması ikitərəfli əlaqələri genişləndirmək üçün əlverişli imkan açmışdır. Bu əlaqələr sabit və sağlam əsasda inkişaf edir.

Ötən müddət ərzində dövlətlərimiz arasında əlaqələr qarşılıqlı faydalı tərəfdaşlıq və dostluq prinsipləri əsasında uğurla inkişaf etdirilib. Bu əlaqələr xalqların mənafeyinə uyğun olaraq inkişaf edir. İkitərəfli əlaqələrin sürətlə inkişaf edərək hazırkı səviyyəyə çatmasında yüksək səviyyəli qar-



şılıqlı səfərlər və imzalanan sənədlər mühüm rol oynayıb. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin Çinə rəsmi səfərləri, əldə olunan razılaşmalar, həyata keçirilən birgə layihələr ikitərəfli əlaqələri daha da dərinləşdirib. 2005 və 2008-i illərdə Prezident İlham Əliyev ÇXR-ə rəsmi səfəri, 2004-cü ildə ÇXR-in xarici işlər naziri Li Çjaosinq Azərbaycana rəsmi səfəri, daha sonra 2010-cu il 16-17 may - ÇXR-in xarici işlər naziri Yanq Cieçı Azərbaycana səfəri Çin-Azərbaycan əlaqələrinin sürətli inkişaf mərhələsinin davamı idi. 2015-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yenidən Çinə dövlət səfəri çərçivəsində Çin Xalq Respublikasının sədri Si Cinpin ilə birgə İpək Yolu iqtisadi kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumunun imzalanması ölkələr arasında münasibətləri daha da gücləndirmiş oldu.

### "BİZ ÇİNLİLƏRƏ NAİLİYYƏTLƏRİMİZİ GÖSTƏRMƏK İSTƏYİRİK"

Çin və Azərbaycan arasında əlaqələrin bütün sahələrdə daha da genişlənməsi üçün böyük potensial mövcuddur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan özünəməxsus inkişaf yolu ilə irəliləyir. İki ölkə arasında nəqliyyat, kənd təsərrüfatı, turizm, energetika, informasiya və kommunikasiya texnologiyaları istiqamətlərində əməkdaşlığın artan dinamikası diqqətdədir. "Ticarətimizi inkişaf etdirmək məqsədilə biz bir neçə ixrac missiyalarını Çinin müxtəlif bölgələrinə göndərmişik" - deyən Prezident dövlətlərarası münasibətlərdə yaxşı nəticələrimizin olduğunu qeyyd etmişdir: "Biz Çində Azərbaycan şərabları evlərini açmışıq. Biri Şanxaydadır, digəri isə başqa şəhərdədir. Çində təşkil olunan böyük sərgilərdə dövri olaraq öz kənd təsərrüfatı məhsullarımızla iştirak edirik. Biz çinlilərə nailiyyətlərimizi göstərmək istəyirik və mallarımız üçün çox böyük, əhəmiyyətli, cəlbedici bazara çıxışı əldə etmək arzusundayıq. Eyni zamanda, qapılarımız Çinin iş adamları üçün açıqdır".

Azərbaycanın tranzit daşımaları sahəsində potensialını reallaşdırmaq baxımından Çinin "Bir kəmər, bir yol" təşəbbüsü ölkəmiz üçün mühüm önəm daşıyır. Azərbaycan bu layihəni dəstəkləyən ilk ölkələrdən oldu. "Bir kəmər, bir yol" strategiyasının həyata keçirilməsində Azərbaycan logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin hələ 2015-ci ildə Çinə rəsmi səfəri çərçivəsində "İpək yolu iqtisadi kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb.

Bildirilmişdi ki, Azərbaycan Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında əhəmiyyətli rol oynayır və respublikamızdan keçən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çinin "Bir kəmər, bir yol" təşəbbüsü ilə uzlaşır və Çin tərəfi konteyner daşımaları baxımından bu dəhlizə böyük maraq göstərir.

Ekspertlərin qənaətinə görə, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi və Zəngəzur dəhlizi faktoru Çin şirkətləri üçün də olduqca maraqlıdır. Bu gün Azərbaycan və Çin arasında olduqca yaxşı iqtisadi əməkdaşlıq mövcuddur. Belə ki, Azərbaycan və Çin arasında xarici ticarət dövriyyəsi 2.1 milyard ABŞ dollarıdır. Bu gün Azərbaycan Çinə mühüm növ məhsulları ixrac edir.

### ÇÜCOU VƏ SUMQAYIT - QARDAŞLAŞMIŞ ŞƏHƏRLƏR

Çinlə Azərbaycan arasında diplomatik əlaqələrin yaradılması iki ölkənin tarixində yeni mühüm səhifə açıb. Ölkələrimiz arasında humanitar, mədəniyyət və elm-təhsil sahələrində də sıx əməkdaşlıq müşahidə olunmaqdadır. Mütəmadi olaraq, Çində və Azərbaycanda qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi, tələbə mübadiləsi proqramları buna bariz nümunədir. Azərbaycan Respublikası və ÇXR arasında imzalanmış mədəni əməkdaşlığa dair müqaviləyə əsasən 1995-ci il 12-21 aprel tarixi arasında Pekin Beynəlxalq sərgi mərkəzində məşhur Azərbaycan rəssamı Səttar Bəhlulzadənin əsərlərinin sərgisi keçirilib. 2001-ci ildə Çinin Cizian əyalətinin Çücou şəhəri və Azərbaycanın Sumqayıt şəhəri qardaşlaşıb. 2008-ci il 10 avqust tarixində Çin Xalq Respublikasının paytaxtı Pekində - "China World Hotel"-də XXIX Yay Olimpiya oyunları çərçivəsində "Azərbaycan günü" keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

2011-ci ilin mayında Çində Azərbaycan mədəniyyəti günləri keçirilib, 10-14 dekabr 2012-ci il tarixində isə Azərbaycanda Çin Xalq Respublikasının mədəniyyət günləri keçirilib. 2019-cu ilin noyabrında Pekində Heydər Əliyev Fondu və ÇXR-dəki Azərbaycan Respublikası səfirliyinin dəstəyi ilə "Azərbaycan musiqisi axşamları" adlı konsert proqramı baş tutub. Ölkəmizdə Çin mədəniyyətinə və Çin dilinə maraq artmaqdadır. Bütün istiqamətlərdə iki ölkə arasında əməkdaşlığın böyük potensialı var. Göründüyü kimi, Çin və Azərbaycan respublikaları arasında möhkəm diplomatik və mədəni əlaqələr mövcuddur. Belə ki, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmaq prinsiplərini rəhbər tutan Azərbaycan Çinlə də bütün istiqamətlərdə sıx əlaqələrə malikdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

***Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin son illərdə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi.***



# Müzəffər xalqımızın bayrağı beynəlxalq arenalarda qürurla qaldırılır!

Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Ermənilərin qoyub qaçdığı hərbi texnikalar, silah-sursatlar bu gün Hərbi Qənimətlər Parkında nümayiş olunur. Burada təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa imkan verir.

Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır.

Əlbəttə ki, bu Zəfər hər bir azərbaycanlının başını uca edib, onları qürurlandırır. Bu gün dünya ölkələrinə müxtəlif məqsədlərlə səfər edən insanlarımız Qalib xalqın nümayəndəsi olaraq fəxarət hissi keçirirlər. Dünya arenasında idman ölkəsi kimi tanınan Azərbaycanın idmançıları bu gün yarışlara qalib ölkənin nümayəndələri kimi qatılırlar. Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərkən çıxışı zamanı bildirdiyi kimi, ”Bu gün siz qalib gəlmiş ölkəni təmsil edirsiniz. Biz müstəqil ölkə kimi böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək.”

Dövlət başçısı xalqımızın və gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman amilinin çox böyük rol oynadığını diqqətə çatdırıb: ”Mən bunu bilərək çalışırdım ki, gənclərdə vətənpərvərlik hissləri daim yüksək olsun. Məhz bu vətənpərvərlik hissləri, Vətənə olan sevgi, bağlılıq Vətən müharibəsində əsas rol oynadı”.

Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Bu gün yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, ”Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib”. Cənab Prezident bildirib ki, Onun Azərbaycana rəhbərliyi dövründə yetişən insanlar bu torpaqları azad etdilər: ”Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi.”

## ”BİZ SÜBUT ETMƏLİ İDİK Kİ, NƏYİN BAHASINA OLURSA-OLSUN TORPAQLARIMIZI İŞĞALÇILARDAN AZAD EDƏCƏYİK VƏ ETDİK ”

Azərbaycanın mərd oğulları şəhidlik zirvəsinə yüksəldilər. Bu torpağın qazisi oldular. Bu günün gənci bu məsuliyyəti dərk edir və sabaha doğru inamla addımlayır. Bu gün hər bir gəncin üzərində ciddi mənəvi məsuliyyət var. Azərbaycan əsgərinin qələbəsi əminliklə deməyə əsas verir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir. Dövlət başçısı 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərkən çıxışı zamanı bildirdiyi kimi, ”Biz uzun illər - 30 ilə yaxın beynəlxalq arenalarda, istər idman, istər siyasi arenalarda məğlub edilmiş ölkə kimi təmsil olunurduq”- deyərək bildirib ki, bunu etiraf etmək nə qədər ağırdırsa, o qədər də sadədir. Yəni, biz həqiqəti olduğu kimi, bilməliyik və deməliyik: ”Bəli, bu məğlubiyyətin səbəbləri var idi, o vaxtkı antimilli hakimiyyətin xəyanətkarlığı, ordunun olmaması, Ermənistana xarici dövlətlərin göstərdikləri yardımlar - bütün bunlar var idi. Məhz bu amillər məğlubiyyəti şərtləndirmişdir. Amma həqiqət o idi ki, torpaqlarımız işğal altında idi və biz sübut etməli idik ki, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və etdik. Bir daha demək istəyirəm, hesab edirəm ki, o cümlədən idman sahəsində əldə edilmiş uğurlar, bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənpərvərlik hisslərini daha da gücləndirirdi və hər birimizə bir daha göstərirdi ki, əgər biz idman yarışlarında düşməni təmsil edən idmançıya məğlub edə biliriksə, döyüş meydanında da mütləq qələbə qazanacağıq.”

Azərbaycan xalqı qalib xalqdır və bu ifadəni işlədərkən böyük bir həqiqətin arxasında dayandığını görürük. Azərbaycan tarixi ədaləti bərpa etdi. ”Siz gənclər artıq başqa Azərbaycanı təmsil edirsiniz”, - deyən Prezident diqqətə çatdırıb ki, siz qalib gəlmiş müzəffər xalqı təmsil edirsiniz: ”Əminəm ki, o arenaya çıxanda sizin ürəyinizdə mütləq bu duyğular olmalıdır. Təkcə Azərbaycan vətəndaşları yox, bütün dünya azərbaycanlıları bu gün özlərini əmin hiss edirlər, yaşadıqları ölkələrdə Azərbaycan həqiqətlərini çatdıraraq, o cümlədən İkinci Qarabağ müharibəsi haqqında qürur hissi ilə danışırlar. Siz də beynəlxalq yarışlarda əlbəttə ki, müxtəlif ölkələrdə olursunuz. Əminəm, bəlkə də siz gənclər yox, - çünki siz təzə-təzə beynəlxalq yarışlarda iştirak etməyə başlamısınız, - amma böyüklər, məşqçilər, idman mütəxəssisləri mütləq görür ki, Azərbaycana münasibət nə dərəcədə dəyişmişdir. Çünki biz qalib ölkəni, müzəffər xalqı təmsil edirik.”

## ”HƏR BİR BÖLGƏDƏ MÜASİR OLİMPİYA İDMAN KOMPLEKSLƏRİ VARDIR”

Qeyd edək ki, Azərbaycanda Olimpiya Hərəkatının inkişafı Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Belə ki, 30 il bundan əvvəl - 1992-ci ildə Milli Olimpiya Komitəsi fəaliyyət göstərməyə başladı. 1997-ci ildən Milli Olimpiya Komitəsinə Cənab İlham Əliyev Sədr seçiləndən sonra Azərbaycanda Olimpiya Hərəkatı vüsət almağa başladı. Bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngimədi. Azərbaycanın hər bir yerində yeni və müasir idman komplekslərinin tikintisinə başlanıldı. Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək oldu. 1998-ci ildə respublikamız ilk dəfə Qış Olimpiya Oyunlarına qatıldı. Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya Oyunlarında respublikamız 5 nəfər idmançı ilə dörd yarışda təmsil olundu. 2000-ci ildə Sidney Olimpiyadasında Azərbaycan idmançıları 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan komanda hesabına 199 ölkə arasında 34-cü, Avropa ölkələri arasında isə 23-cü oldu. Bu ölkənin Olimpiya hərəkatı tarixində ən böyük uğuru idi. 2002-ci ildə Azərbaycan ikinci dəfə Qış Olimpiya Oyunlarının iştirakçısı oldu. ABŞ-ın Soit Leyk siti şəhərində keçirilən bu oyunlarda idmançılarımız 3 yarışda iştirak etdilər. 2004-cü ilin avqustunda Afinada keçirilən Olimpiya Oyunlarında, idman tariximizdə ilk dəfə olaraq, 5 medal qazandı. Çində keçirilən Yeniyetmələrin Olimpiya Oyunlarında Azərbaycanın gənc atletləri beşi qızıl olmaqla 12 medal qazanaraq, 200-ə yaxın iştirakçı arasında 10-cu yeri tutmuşdur. Bütün bunlar Cənab İlham Əliyevin təşkilatçılıq fəaliyyətinin uğurlu nəticələridir.

Son illərdə ölkəmizdə 50-dən çox müasir Olimpiya mərkəzləri inşa olunub. İdmanın inkişafına geniş prizmadan yanaşılır və kompleks tədbirlər görülür. Cənab Prezidentin qeyd etdiyi kimi, bizdə hər bir bölgədə müasir olimpiya idman kompleksləri vardır, 50-yə yaxın belə bir kompleks artıq inşa edilib və onlardan səmərəli şəkildə istifadə etməliyik.

Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də elə ölkəmizə Avropa Olimpiya Komitəsinin inamı idi. Avropa Olimpiya Komitəsinin Baş Məclisində 2015-ci ildə Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilməsi, ilk oyunların Bakıda keçirilməsi böyük nailiyyət idi. Bu cür oyunları ilk dəfə təşkil etmək Azərbaycan üçün şərəfli olduğu qədər də məsuliyyətlidir. Yarışlar Bakıda 21 idman obyektində keçirildi. Təbii ki, bütün bunlarla yanaşı, Azərbaycan 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, Bədii Gimnastika üzrə Dünya Kuboku, ”Formula-1” kimi mötəbər yarışlara uğurla ev sahibliyi etdi və özünü dünyada idman ölkəsi olaraq tanıda bildi. IV İslam Həmrəyliyi Oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri bunun daha bir parlaq nümayişi oldu. Azərbaycan 75 qızıl medalla birinci yeri qazandı. İdman arenalarında Azərbaycanın Dövlət Himninin 75 dəfə səslənməsi, təbii ki, böyük qürurdur.

## “BİZ LƏYAQƏTLİ XALQI VƏ BÖYÜK HÖRMƏTƏ LAYİQ OLAN ÖLKƏNİ TƏMSİL EDİRİK”

İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Kütləvi olaraq bu sahəyə axın var. ”Biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik. Siz idmançılar bundan sonra, sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz” - deyərək bildirib ki, bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq.

Əlbəttə ki, işğaldan azad olunan torpaqlarımızda da idmanın inkişafına diqqət ayrılacaqdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 il ərzində xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır. Dövlət başçısın qeyd etdiyi kimi, azad edilmiş torpaqlarda idman inkişaf etməlidir: ”Biz indidən bu işlərlə məşğul oluruq. Stadionlar, idman kompleksləri və digər idman qurğuları şəhərlərin, azad edilmiş bütün şəhərlərin Baş planlarında da öz əksini tapır”.

***Zümrüd BAYRAMOVA***

# İnsanlar sosial şəbəkələrdən niyə asılı vəziyyətdədir?




***"İnstagram", "Tvitter", "Facebook" və digər sosial şəbəkələr mövcuddur. Biz yüz minlərlə izləyicisi olan "influencer" deyilik. Deməli, sosial şəbəkədə foto paylaşdığımız üçün heç kim bizə pul ödəmir. Bəs, niyə sosial mediada fotolar və videolar paylaşırıq?***

10 əsas elementin insanları sosial mediada paylaşıma sövq etdiyi ortaya çıxıb. Bunlar: şəxsi məmnunluq, yetkinlik hissi, öyrənmək istəyi, şəxsi maraq, altruizm, empatiya, sosial iştirak, ictimaiyyətin diqqəti, qarşılıqlı əlaqə və reputasiyadır.Bilirik ki, gözəl bir kadr əldə etdiyimiz zaman hamımız onu "İnstaqram"da paylaşmaq üçün səbirsizlənirik. Bədənimiz artıq o anda dopamin ifraz etməyə başlayır. İzləyicilərinizdən qarşılıqlı əlaqə aldığınız zaman sərbəst buraxılan bu kimyəvi maddə çox vaxt asılılıq ilə əlaqələndirilir. Bu səbəbdən sosial medianın bir növ asılılıq olduğunu söyləsək daha doğru olar.

Gündəlik söhbətlərimizin təxminən 30-40%-də özümüz haqqında danışırıq. Sosial mediada bu nisbət 80%-ə qədər yüksəlir. Öz fikirlərimizi bölüşmək çox vaxt başqa fikirləri dinləməkdən daha cazibədar olur. Bizdə hər hansı bir məlumatı başqalarına ötürmək üçün fitri istək var. Buna görə də, internetdə rast gəldiyimiz hər cür maraqlı məzmunu paylaşmaq istəyimiz var.

Araşdırmalara görə, sosial media istifadəçilərinin 78%-i sevdikləri ilə ünsiyyət qurmaq üçün paylaşımlar edir. Hansı platformada olmağınızdan asılı olmayaraq şərhlər və "dm" vasitəsilə qarşılıqlı əlaqə qurursunuz. Bəzən bu qarşılıqlı əlaqə üçün hekayəyə alov atmaq kifayətdir, bəzən isə qarşılıqlı əlaqənin mövzusu ideyalar və ya ideologiyalar ola bilər.

Sosial mediada etdiyimiz paylaşımlara müsbət reaksiyalar həm insanlarla bağımızı gücləndirir, həm də özümüzü yaxşı hiss etməyimizə yardım edir. Postları bəyənərkən beynimizdə ilişib qalan vəziyyətlərdən biri də bu qarşılıqdır. Bunu qısaca olaraq "layka qarşılıq layk" kimi ümumiləşdirmək olar. Niyə bəyənilməyə ehtiyacımız olduğuna gəlincə biz sosial varlıqlarıq və buna ehtiyacımız var.

Çox yaxın olduğumuz insanlarla uzun müddət uzaq qala bilərik. Müəyyən məsafədən sonra bir çox qohumlarımızla yeganə əlaqəmiz sosial şəbəkələrdə etdiyimiz paylaşımlardır. Bu paylaşımlar sayəsində sevdiklərimizə zamanla necə dəyişdiyimizi göstəririk. Bir növ hələ də eyni insan olduğumuzu və ya müsbət mənada dəyişdiyimizi sübut edirik.

Məsələn, qrup fotolarını paylaşarkən izləyicilərimizə sosial ünsiyyətdə nə qədər uğurlu olduğumuzu göstəririk. Bir-iki foto paylaşanda hər kəsə sevildiyimizi elan edirik. Heyvanlarla və ya çiçəklərlə fotoşəkillər paylaşarkən, təbiətə və heyvanlara olan sevgimizi izləyicilərimizə əks etdiririk.

Diqqət mərkəzində olmaq bir çox insanlar üçün vacibdir. Təbii ki, biz bu diqqəti təqdir qazanmaqla cəlb etmək istəyirik. Məsələn, biz düşünürük ki, küçədə yıxılanda hamı bizə baxır və gizlin gülür. Eyni şey sosial mediada yazdıqlarımıza da aiddir. Bəzən sosial şəbəkələrdə paylaşımların motivasiyası yalnız bir şəxs ola bilər. Bəzən bunu kiminsə diqqətini cəlb etmək və onlara necə maraqlı insane olduğumuzu göstərmək, bəzən də kiməsə itirdiklərini göstərmək üçün edirik. SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq və mütəxəssislərin fikirlərini öyrənib.



**"Technogen MMC" və "Dev-Center MMC" şirkətinin təsisçisi, "Aral" Şirkətlər Qrupunun İnformasiya Texnologiyaları Departamentinin direktoru Fərrux Rəcəbli:** "Əslində, sosial şəbəkədən istifadə edən insanlar iki kateqoriyaya bölünür. Birinci kateqoriyaya yediklərini, içdiklərini, ümumiyyətlə, həyatlarına aid olan hər şeyi, hər bir anı sosial şəbəkədə paylaşaraq fenomen olan insanlar aiddir. Hansı ki bu insanlar məşhurlaşdıqdan sonra sosial şəbəkələr vasitəsilə qazanc əldə etməyə başlayır. Beləliklə, onlar sosial şəbəkəni biznesə çevirmiş olur.

Digər kateqoriyaya aid olan insanlar isə sadəcə vaxt keçirmək üçün sosial şəbəkədən istifadə edənlərdir. Onlar ya başqalarının həyatını izləyərək, ya da öz bacarıqlarını şəkil yaxud video-çarx vasitəsilə yayımlayaraq sosial şəbəkədə vaxt sərf edirlər. Əgər belə bir zaman boşluğu varsa, həmin insanların nə üçün öz dostları ilə vaxt keçirmədiklərini düşünə bilərik. Amma, o insanların dostlarının da əksər vaxtlarda sosial şəbəkədə olduğunu, elə bu sosial şəbəkələr üzərindən əlaqə qurduğunu nəzərə almalıyıq. İndi elə bir zəmanədir ki, hara getsək də həmin mühitdə internet tapmaq mümkündür.

Beləliklə biz daim onlayn oluruq. Lakin fikrimcə, biz sosiallaşmağı düzgün dərk etməmişik. Sosial mediada olan aktivliyimizin sosiallaşmaq olduğunu düşünürük. Sosiallaşmaq sosial şəbəkələr üzərindən məşhurlaşmaq deyil, müxtəlif təcrübələrdən keçmək, elmi biliyə sahib olmaq, böyük kütlələrin içərisində olmaq, dünya ölkələrinə səyahət etməkdir".



**Psixoloq Fidan Nizamova:** "Sosial şəbəkələr və kompüter oyunları real heyatdan ayrılaraq, dünyadan gizlənməyə, reallıqda qurulması mümkün olmayan alternativ həyat sürməyə vasitəçi olur.

Sosial şəbəkələrə və kompüter oyunlarına aludəçilik müalicə tələb edən ciddi problemdir. Sosial şəbəkələr və kompüter oyunlarına aludəçiliyin əsasını : həll edilməmiş konfliktlər, aqressiyanı adekvat şəkildə ifadə edə bilməmək, özünə inamsızlıq hissi, həyatından narazılıq, şəxsi və peşə fəaliyyətində doyumsuzluq kimi faktlar təşkil edir. Virtual reallıqda heç bir real problem və problemin həlli olmadığına görə çoxları orada "qalmağı" seçir.

Həmçinin sevgi, dəstək, bəyənilmə ehtiyacı olan insanlar sosial şəbəkədən aldıqları hər "like" və xoş sözlərdən xoşbəxtlik hissi duyduğundan oradan o emosiyalardan asılı vəziyyətə düşür".



**Psixoloq Vüsalə Əmiraslanova:** "Sosial şəbəkələrdən asılı qalmaq çox vaxt insanların asudə vaxtlarını düzgün şəkildə keçirə bilməmələri ilə əlaqələndirilir. Həmçinin də ümumi gündəlik olan boşluqları doldurmaq üçündür.

Depressiv insanlarlar olur ki, sosial şəbəkədə yazıları oxumaqla rahatlıq tapırlar. Bəzi insanlar da status paylaşmaqla və ya kiminsə paylaşımlarına rəy bildirməklə özlərini sosial şəbəkədə tapırlar. Bəzi insanlar üçün isə sosial şəbəkə bir vərdiş halını alıb. İş bölgüsü düzgün olduqda isə şəxsin buna vaxtı olmur. İnsan özündə narahatlıq hiss edirsə, bu, artıq pis vərdiş halını alır. Sosial şəbəkədən asılı olmamaq üçün bacardığımız qədər mütaliə etməliyik".



**Sosial media mütəxəssisi Orxan Rzayev:** "Sosial şəbəkələrin insan həyatına çox ciddi şəkildə daxil olmasının səbəblərindən biri onun əlçatan olmasıdır. İnterneti olan istənilən şəxs sosial şəbəkələrdən istifadə edə, ödənişsiz şəkildə qeydiyyatdan keçə bilir. Buna görə də sosial şəbəkələr cəmiyyət arasında sürətlə yayılır. Digər səbəblərdən biri də sosial şəbəkələrin insana şəxsiyyət qazandırmasıdır. Bununla da sosial şəbəkələrin son 10-15 ildə bəşəriyyətin ab-havasını dəyişdiyini qeyd edə bilərik. İnsanlar sosial şəbəkədə bir status paylaşaraq digərlərinin diqqətini çəkə, eyni zamanda gələcəkdə də söz sahibi ola bilir.

Sosial şəbəkələr vasitəsilə insanlar məlumat əldə edə, iş axtara, hətta gələcək həyat yoldaşını belə tapa bilər. Bu da sosial şəbəkələrin müsbət tərəfləridir. Buna görə də sosial media bəşəriyyət üçün daim maraqlı olacaq. Onun müsbət tərəfləri ilə yanaşı mənfi tərəfləri də var. Bunlardan biri də asılılıq problemidir. Sosial şəbəkələrdən asılı olmaq insanın şəxsi həyatına, iş prosesinə də mənfi təsir göstərir. İnsanlar sosial şəbəkələr vasitəsilə mənfi vərdişlərə, etik olmayan davranışlara da yiyələnə bilirlər.

Hər şeyini, bütün yediyi-içdiyini sosial şəbəkəsində paylaşanlara gəlincə isə onların iki kateqoriyaya ayrıldığını deyə bilərik. Çünki bəzi insanlar food bloggerdir və yediklərini paylaşaraq onlar öz işlərini görmüş olurlar. Lakin digər bir qisim də var ki, sadəcə özlərini reklam etmək üçün və ya sosial şəbəkələri boş qalmasın deyə bu cür paylaşım edirlər.

İnsanlar öndə olmağı, başqaları tərəfindən bəyənilməyi sevir. Sosial şəbəkələr də insanlar üçün bu imkanı yaratdığı üçün bu qədər məşhurlaşıb. Daha sonra isə insanlar sırf bəyənilmək üçün etik dəyərləri kənara qoyaraq hər şeyi etməyə başladı. Hətta bu yolla pul qazanmağa da üz tutdular. Bu sosial şəbəkənin mənfi tərəfidir. Amma bunları qeyd etməklə, sosial şəbəkələrin müsbət tərəflərini, düzgün istifadə edənlər üçün xeyrini də gözardı etməməliyik".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Naxçıvan həmişə heyran edir



***Novruz tətili günlərində bir neçə qonağımla birlikdə Naxçıvana getmişdik. Onların arasında bu gözəl diyara bir neçə dəfə gələnlər də var idi, ilk dəfə gələnlər də. Naxçıvan Beynəlxalq Hava Limanından ayrılıb mənzil başına yön alan andan qonaqlar arasında maraqlı söhbətlər, diskussiyalar başladı. Mən isə, hələlik, bu söhbətlərin dinləyicisi, arada verilən sualları cavablandıran şəxs idim.***

(I yazı)

## İlk təəssürat: təmizlik

Naxçıvana ilk dəfə gələn qonaqlarımın ilk təəssüratları yolların, yol kənarlarının, Naxçıvan şəhərinin təmizliyinə heyranlıqları oldu. Yəni söhbət əsnasında elə hey bundan danışırdılar. Artıq bir neçə dəfə burada olan qanağım isə, "Naxçıvan hər zaman belə təmizdir, ilin bütün fəsillərində burada olmuşam, neçə deyərlər, gül güllü çağırır, bülbül bülbülü. Hələ siz buraya yayda gələsiniz, hava limanından düz mənzil başınadək yol kənarlarındakı rəngbərəng güllər adama yoldaşlıq edir".

Yolumuz uzun idi, hava limanından Şahbuz rayonunadək. Naxçıvan şəhərindən çıxdıq, rayona doğru heç də görüntülər dəyişmirdi, əksinə maşınımız şüşə kimi yollarla dağların qoynuna sığınan, dəniz səviyyəsindən min metrlərlə yüksəklikdə yerləşən Şahbuza doğru irəlilədikcə təmiz dağ havasının fonunda ətrafdakı təmizlik, yolboyu sıra ilə düzülmüş binalar, səf-səf ağaclar, bir də mənzil başınadək maraqla soruşduqları, cavabı "qaz kəməri" olan, dağların sinəsinə ilan kimi sarılan sarı borular qonaqlarımı daha çox heyran edirdi. Bərdə şəhərindən olan qonaq, "Kaş ki, bizim də şəhərimizdə buradakı təmizliyin yarısı olardı",- deyib gileylənirdi. Elə onun bu giley-güzarı məni xeyalən illər öncələrin Naxçıvanına götürdü. O Naxçıvana ki, indi ondan əsər-əlamət belə qalmayıb. O Naxçıvana ki, bir vaxtlar burada yaşayan insanlar da bu qonaqlar kimi gileyli-güzarlı idilər. Məgər Naxçıvan həmişəmi belə abad, gözəl, təmiz olub? Xeyr, burada görülən işlərin uzun illər şahidi olduğum üçün bunu qonaqlarıma da anlatmağa başladım:

## Vaxt var idi ki...

Vaxt var idi ki, bax, bu hava limanından Şahbuz rayonuna olan 20-25 dəqiqəlik yolu bir saata, saat yarıma getməli olurdun. Daşlı-kəsəkli yollar, hələ hava yağışlı-qarlı olanda daha dəhşətli vəziyyətdə-palçıqdan keçilməz olurdu. Tez-tez avtomobil qəzaları baş verirdi. Ucqar kənlərdə yaşayan insanlar xüsusilə əziyyət çəkirdilər. Çünki kəndlərdə heç bir şərait yox idi. Onlar bazarlığa Naxçıvan şəhərinə (çünki rayonlarda bazar yox idi) gəlir, hansısa bir sənəd almaq, xəstəxanada müayinə üçün rayon mərkəzinə enməli olurdular. Bu isə həm maddi, həm də vaxt baxımından onlara sərf etmirdi. İnsanlar olmazın çətinlikləri ilə üz-üzə qalırdılar. Bu, o dövr idi ki, sovet imperiyasının buxovlarından təzəcə azad olmuşduq. Elə yeri gəlmişkən onu da vurğulayım ki, bütün bunlar sovetlər birliyinin ölkəmizə göstərdiyi biganə münasibət, regionların tamamilə nəzərdən kənarda qalması, insan amilinə hörmətsizliyin nəticələri idi.

Kənd zəhmətkeşlərinin bərbad yol və yaşadıqları ərazidə bazarın yoxluğu ucbatından qara yazdan min bir əziyyətlə istehsal etdikləri məhsul payızda əllərində qalırdı. Bu məhsulları bərbad, həm də baha başa gələn yollarla Naxçıvana-bazara gətirməklə kəndli heç bir gəlir əldə etmirdi. Buna görə də öz istifadə edəcəyi qədər istifadə edir, qalan məhsul isə xarab olub, zəhmətkeş insanların əziyyətini əllərində qoyurdu.

Dəfələrlə şahidi olmuşuq ki, ucqar dağ kəndlərində xəstənin həyatı bu yollardaca yarımçıq qalıb. Onu vaxtında xəstəxanaya çatdırmaq mümkün olmayıb.

Bütün bunların ardınca isə 1988-ci ildən sərhədlərimizdə başlanan erməni qalmaqalı, elektrik enerjisinin, qaz xəttinin tez-tez dayandırılması, Bakı-Naxçıvan qatarına basqınların edilməsi, maşinistlərin döyülməsi, günlərlə qatarların işləməməsi naxçıvanlılar üçün yeni çətinliklər yaratmağa başlayırdı. Onlar hələ xəbərsizdilər ki, bu bəhbad yollar, bu uzaq xəstənalar, bazarlar, saatlarla yollarda itirdikləri vaxt çox yaxın gələcəkdə başlarına gətirilənlərin kölgəsində qalacaq. Naxçıvanı yeni təhlükə gözləyirdi. Nə idi bu təhlükə?

## Blokada

Artıq 1989-1990-cı illərdə Naxçıvanda blokada çoxdan başlamışdı. İki il ərzində ayrı-ayrı vaxtlarda qatarların işləməməsini, eletrik, qaz xətlərinin kəsilməsi günlərini hesablayanda bir il idi ki, Naxçıvan blokada şəraitində yaşayırdı. Elektrik enerjisinin, təbii qazın yoxluğu, qatarların işləməməsi bütün istehsal müəssisələrinin fəaliyyətini dayanmasına səbəb olmuşdu. Artıq haqqında danışdığımız yollarda hərdənbir avtomobillər görünə bilirdi. Rayonlardan Naxçıvana marşqut avtobusları dayandırılmışdı. Çünki yanacaq yox idi. İnsanlar evlərində yandırmağa heç nə tapmırdılar. Onlar soyuqdan donurdular. Bu, hələ blokadanın ilk ili idi. Bir azdan ərzaq qıtlığı, ümumiyyətlə yanacağın yoxluğu qarşısında dəhşətli bir həyat var idi. Naxçıvan günü-gündən məhvə doğru gedirdi. Bir tərəfdən ermənilərlə bütün sərhədlərində, xüsusilə Sədərəkdə qanlı müharibələr gedir, bir tərəfdən region informasiya blokadasına məruz qalmışdı, digər tərəfdən isə aclıq, səfalət hökm sürürdü.





Naxçıvan həmin dövrdə bu çətinlikləri naxçıvanlılarla birlikdə yaşayan, çıraq işığında fəaliyyət göstərərən ulu öndərimiz Heydər Əliyevin dediyi kimi, "Taleyin ümidinə buraxılmış tənha ada"nı xatırladırdı.

Naxçıvanın da, naxçıvanlıların da bu qara günlərdə üzlərinə yalnız bir günəş doğdu. O günəş ki, doğulması ilə bu qədim diyarın və onun sakinlərinin xilaskarına çevrildi. Bu barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyir: "Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu. Azərbaycana edilmiş hərbi təcavüzdən - 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Heydər Əliyev sovet rəhbərliyini kəskin şəkildə ittiham etdi və Sovet İttifaqı Kommunist Partiyasından çıxdı. Bundan sonra ona qarşı böyük təzyiqlər başlandı. O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda o vaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə - Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".

Bəli, əgər blokadanın ilk ilində ulu öndər şəxsi nüfuzu, qonşu dövlətlərlə yaratdığı iqtisadi əlaqələr sayəsində naxçıvanlıları məhv olmaq təhlükəsindən qorudusa, sonrakı iki ildə burada böyük quruculuq işlərinin təməlini qoydu. Naxçıvan bütövlükdə yenidən qurulmağa başlandı. Sonrakı illərdə bu siyasətin uğurla davam etdirilməsi və müvəffəqiyyətlə həyata keçirilməsi isə bu gün Naxçıvanı buraya gələn hər kəsin heyrət etdiyi diyara çevirdi.

## O diyara ki...

Bax gördüyünüz, bəyəndiyiniz, heyran qaldığınız bu yollar muxtar respublikanın ən ucqar kəndlərinədək uzanır. Dövlətimizin başçısı bu barədə deyir: "Bütün şəhərlər artıq magistral yollarla bir-birinə bağlanıbdır və Naxçıvanda olan hər bir insan bunu görür. Yollar çox keyfiyyətlə tikilir, mən bu yolların açılışlarında iştirak etmişəm, bəzi yollar çoxdan istismara verilib, amma buna baxmayaraq keyfiyyət də yerindədir".

Bu kəndlər həmin kəndlər idi ki, 20-25 il əvvəl orada çayxanalar bir-biri ilə çiyin-çiyinə söykənmişdi. İnsanlar torpaqdan əl götürüb, günlərini həmin antisanitariya ocaqları olan çayxanalarda keçirirdilər. Buradakı rütubət, tüstü insanların çiyərlərini sıradan çıxarmaq üzrə idi. Ulu öndərin 1992-ci ildə Naxçıvanda başladığı torpaq islahatının uğurla davam etdirilməsi, insanların şüuruna maarifləndirmə toxumlarının səpilməsi kəndlinin torpağa meylini elə bir şəkildə dəyişdi ki, o, şüurlu şəkildə anladı ki, torpaq onun üçün ən faydalı iş yeridir. Bu cür düşünən insanlar çayxanalarda itirdiyi saatları torpağına sərf etməklə torpaq sahibinə çevrildi. Həmin torpaq sahibləri indi Naxçıvanın tanınmış iş adamları, sahibkarlardır.

Kənd zəhmətkeşlərinin məhsullarını realizə etmələri üçün bazarlar fəaliyyətə başladı, hər həftənin şənbə-bazar günləri kənd təsərrüfatı məhsulları yarmarkaları təşkil olundu ki, təsərrüfat sahiblərinə məhsullarını burada sərbəst şəkildə satmalarına hərtərəfli şərait yaradıldı. Bunun ardınca kənd adamlarının maşın-texnika, gübrə, su, subsidiya, güzəştli kreditlərlə təmin olunması, müxtəlif kənd təsərrüfatı məhsulları festivallarının keçirilməsi torpağı alın təri ilə suvaran insanların maraqlarını daha da artırdı, onları torpağa qırılmaz tellərlə bağladı. Çünki blokadanın ilk illərində qazanc dalınca başqa ölkələrə gedən, işsizlik ucbatından ailə yanında üzü qara olan, maddi vəziyyətin aşağı olmasına görə övladına toy edə bilməyən insanlar bunları ard-arda həyata keçirdikcə, özlərinə yeni evlər tikib, maşınlar aldıqca gördülər ki, torpaqdan səmərəli iş yeri yoxdur.

Bütün kəndlərdə yeni məktəblər, mədəniyyət müəssisələri, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri tikildi. Xidmət orqanları bir mərkəzdə-kənd mərkəzlərində birləşdirildi. Kənd sakinləri daha vaxt sərf edib rayon mərkəzinə hansısa bir sənəd ardınca, müayinə, peyvənd üçün getmədilər, bunu yaşadıqları ərazidəcə həll etdilər.



Rayon mərkəzləri və şəhərlər başdan-başa yenidən quruldu, prospektlər, küçələr, parklar yaradıldı. Bütün xidmət obyektləri təzələndi, sovet dövründənqalma nə vardısa, yeniləndi. Dəfələrlə şahidi olmuşuq ki, böyük şəhərlərdən Naxçıvanın xəstəxanalarında olan mütəxəssislər buradakı tibbi avadanlıqların onlarda olmadığını vurğulayıblar. Xarici qonaqlar kəndlərdəki məktəbləri universitet binalarına bənzədiblər.

Bəli, dövlətimizin qayğısı, dövlətçiliyə sadiq insanlar sayəsində Naxçıvan blokada şəraitində yaşaya-yaşaya zamana meydan oxudu. Təbii qazla təmin olundu. Öz təbii resurslarına doğru yol alaraq elektrik enerjisi istehsalçısına çevrildi. Prezident İlham Əliyevin də dediyi kimi: "Yollarla, elektrik təchizatı, qazlaşdırma ilə bağlı - bütün istiqamətlər üzrə muxtar respublikada görülən işlər məni çox sevindirir. Təkcə onu demək kifayətdir ki, qazlaşdırmanın səviyyəsi artıq 100 faizə çatıb. Elektrik enerjisi ilə təchizat 100 faizə çatıb və Naxçıvanda çox böyük enerji potensialı yaradılıb. Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpaolunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir".

Hər addımda gözəllikləri ilə heyran edən Naxçıvan ötən illərdə həm də turistlərin üz tutduğu diyara çevrilib. Məşhur Ordubadı, Əshabi-Kəhfi, Duzdağı, Şahbuzunun Batabatı, Ağbulağı-burada yaradılan dağ-xizək mərkəzi Naxçıvanın təbii gözəllikləri üzərinə yeni gözəlliklər əlavə edib. Düşünürəm ki, min dəfə söyləməkdənsə, bir dəfə görmək daha məsləhətlidir.

## Blokada Naxçıvanı və "Sənaye ili"

Heyranedici cəhətlərdən biri isə Naxçıvanla bağlı bütün yazılarımda vurğuladığım kimi, blokada şəraitində inkişafa bu dərəcədə nail olunmasıdır. Bu il Naxçıvanda "Sənaye ili"dir. Çox maraqlıdır, deyilmi? Blokada Naxçıvanı və "Sənaye ili". İllər sonraların araşdırma mövzusu olacaq bu nailiyyətlər qürur hissi doğurur. Naxçıvan dünyaya bir yenilik bəxş edir: blokadada yaşaya-yaşaya inkişafın da ola biləcəyi möcüzəsini.

Statistikaya nəzər salaq. Ötən il ümumi daxili məhsul istehsalı 3 milyard 16 milyon 315 min manat, bir il öncəki göstəricidən 2,4 faiz çox olub. Hər bir nəfərə düşən ümumi daxili məhsul əvvəlki ilə nisbətən 3,4 faiz artaraq 6525 manat, orta aylıq əməkhaqqının məbləği isə 548,8 manat təşkil edib. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27 faizlə sənaye sahəsi tutur. Ötən il muxtar respublikada bir il öncəki göstəricini 1,7 faiz üstələyən həcmdə - 1 milyard 69 milyon 655 min 700 manat dəyərində sənaye məhsulu istehsal olunub. Burada özəl bölmənin payı 92,3 faizdir. Sənayenin inkişafı məqsədilə təsərrüfat subyektlərinə 2021-ci ildə 11 milyon 276 min manat kredit verilib. 194 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, yaxud yaradılması davam etdirilib. Naxçıvanda 384 növdə məhsul istehsal olunur.

2021-ci ildə muxtar respublikada sahibkarlara verilən 38 milyon manatdan artıq kreditin 13 milyon 875 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 24 milyon 161 min 100 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunub. 52 hüquqi və 2389 fiziki şəxs qeydiyyata alınıb. 2021-ci ildə bir il öncəyə nisbətən 5,3 faiz çox, yəni 573 milyon 380 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub

Təkcə 2021-ci ildə muxtar respublikada 355 sosial və inzibati obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, 149 obyektdə tikinti və yenidənqurma işləri davam etdirilib. Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib və ötən il əhalinin şəxsi vəsaiti hesabına 376 min 661 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib.

Ötən il mayın 10-da Naxçıvana səfəri zamanı dövlətimizin başçısı cənab İlham Əliyev bölgənin sürətlə inkişaf etdiyini və bütün sahələr üzrə işlərin müsbət istiqamətdə getdiyini vurğulayaraq demişdir: "Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmendir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb".

Bəli, ümummilli liderimizin başladığı uğurlu siyasətin dövlətimizin uğurla davam etdirməsinin təntənəsidir bu gün Naxçıvan. Niyə də hər kəsi heyran etməsin ki...

***Mətanət Məmmədova***

*P.S. Səhəri gün isə Türkiyə Respublikasına gedirdik. Sədərək gömrük-keçid məntəqəsinədək yolboyu göz baxdıqca uzanan sıx yaşıllıqların müzakirəsi gedirdi. Bu barədə ikinci yazıda.*

# 1 Aprel Gülüş Günü ilə bağlı cəmiyyətin baxışı - SORĞU



***1 Aprel Ümumdünya Gülüş Günüdür. Bu günün meydana gəlməsi ilə bağlı müxtəlif rəvayətlər mövcuddur. Ən çox yayılmış rəvayətlərdən biri də gülüş gününün Romada yaranması ilə bağlıdır. Romada təxminən 2000 il əvvəl hazırkı gülüş gününə oxşar bayramlar təşkil edilirmiş və bu bayramı ağılsızların günü adlandırırlarmış. Hər şey isə qapı qulluqçularından birinin imperator Konstantinə zarafatla gülüşün dövlətə onun özündən çox fayda verə biləcəyini deyəcək qədər ürəklənməsindən başlayıb.***

Digər versiya isə Pasxa ilə əlaqədardır. Bildirilir ki, məhz aprelin 1-də müəyyən ölkələrdə Pasxa öncəsi yaz bərabərliyinin başlanğıcı kimi anılıb. Deyilənə görə, insanlar yeni ilin ilk gününü şən zarafatlarla keçiriblər. Belə adamları ələ salır, onlara axmaq hədiyyələr verir, özlərini isə aprel axmaqları adlandırırdılar. Bəs görəsən şəhər sakinləri bu günü qeyd edirlərmi? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:













**Şəhər sakini Səma Məmmədova:** "Əslində bu gün uşaqlar üçün daha maraqlıdır. Çünki onlar deyib gülməyi, zarafatlaşmağı daha çox sevirlər. Məktəbdə dostları ilə əylənirlər. Mənim üçün bu günün elə bir əhəmiyyəti yoxdur. Bu gün heç kəsə zarafat etmədim. Mənim üçün normal bir gündən fərqi yoxdu".

**Şəhər sakini Şəfiqə Baxşəliyeva:** "Gülüş günü mənə görə əhəmiyyətli bir gün deyil. Bir yerdə oxumuşdum ki, bu gün əslində xristianların müsəlmanları aldadaraq onların öldürüldüyü gündür. Ona görə düşünürəm ki, bu günü qeyd etmək mənasızdır".

**Şəhər sakini Məlahət Ağayeva:** "Nəvələrim bu gün məni aldatdılar. Dedilər ki, nənə, pulun yerə düşüb. Baxdım ki, yerdə pil yoxdu. Başladılar gülməyə. Dedilər ki, nənə, bu gün bir apreldir. Nəvələrimin gülməyi əlbəttə ki, məni sevindirir. Bu gün uşaqlar üçün daha maraqlıdır".

**Şəhər sakini Nigar Rüstəmova:** "Uşaq olanda daha çox zarafatlar edirdik. Dostlarımızla, sinif yoldaşlarımızla əylənirdik. Böyüdükcə bu gün öz əhəmiyyətini itirir".

**Şəhər sakini Tahirə Bağırova:** " 1 Aprel Gülüş Günüdür. Əyləncəli bir gündür. Bu gündə zarafat edərək əylənirik. Hər 1 apreldə ətrafımdakı dostlarımla zarafatlaşır, əylənirik. Gülməyin günü yoxdur əslində".

**Şəhər sakini Afət Əliyeva:** "1 aprel mənim üçün normal günlərdən biridir. Məncə, belə bayramlar əhəmiyyərsizdir. Bu gün uşaqlar üçün daha əyləncəlidir ki, dostlarını aldadırlar. Onların ən sevdikləri günlərdəndir".

***Abutel İlhamqızı***

# Rusiyanın qazı rubl ilə satması NƏLƏRƏ SƏBƏB OLACAQ?



***"Rusiyanın qazını rubla satması olduqca inqilabi bir qərardır". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Aslan Əzimzadə bildirib. Onun sözlərinə görə, bu qərar rublun dollar qarşısında müəyyən mənada dəyərlənməsi ilə nəticələnə bilər: "Lakin G7 ölkələrinin Rusiya qazını rublla almaqdan imtina etməsi kontekstində məsələyə nəzər yetirsək G7 ölkələrindən yalnız Almaniya birbaşa olaraq Rusiyadan qazı əldə edir.***

Belə olduqda "Şimal axını 1" layihəsində müəyyən problemlər yarana bilər. Lakin bəzi Avropa ölkələri var ki, onlar Ukrayna və Belərusiya üzərindən qaz nəqlini həyata keçirir. Serbiya və Moldova Rusiya qazını rubla alacaqları ilə bağlı öz qərarlarını veriblər. Burada onlar üçün heç bir maneə görünmür. Almaniyaya ixrac edilən "Şimal axını 1" layihəsi çərçivəsində 55 milyard kub qazı Rusiya digər böyük bazarlar olan Çin, Hindistan və qaz üçün premium bazar sayılan Cənub-Şərqi Asiya bazarlarına ixrac edə bilər. Bütövlükdə bu məsələnin Rusiya iqtisadiyyatına ciddi bir ziyanı olmayacaq. Əksinə qaz ixracının rublla təmin edilməsi rublun dəyərlənməsinə səbəb olacaq".

***Abutel İlhamqızı***

# İsrailli politoloq erməni ittihamlarını darmadağın etdi!

***Mixail Finkel sərt danışdı: "Qarabağdakı məscidləri donuzxanalara və mal tövlələrinə döndərən kimdir? Kim azərbaycanlıların bir çox qəbirlərini dağıdıb? Kim bütün Qarabağda milyonlarla minaları basdırıb?"***

"Azərbaycan xalqı heç vaxt soyqırımı siyasəti həyata keçirməyib və ermənilərdə olduğu kimi öz təbiətində belə bir qorxulu qəddarlığa malik deyil". SİA xəbər verir ki, bu haqda İsrailin tanınmış politoloqu, hüquq elmləri doktoru Mixail Finkel YouTube kanalında yayımlanan "Rasim Babayevlə müasir söhbət" müəllif proqramına müsahibəsində deyib. SİTAT: "Belə bir qədim ifadə var: "Hər kəs özünə görə mühakimə edir". Ermənistan artıq yüz ildən çoxdur ki, 1915-ci il qondarma "soyqırımı" haqqında bütün dünyaya çığırır... Mən nəyə görə "qondarma" deyirəm, çünki ermənilər Osmanlı imperiyasının vətəndaşları olaraq müharibə vaxtı öz ölkələrinə qarşı satqınçılıq etdilər. Erməni zabitləri və əsgərləri düşmən tərəfinə keçdilər, xüsusilə, Rusiya imperiyasına tərəf".

"Digərləri ilə yanaşı ermənilər 3 min dağ yəhudisini qətlə yetirdilər ki, onlar Azərbaycana qarşı loyal idilər. Soyqırımı!!!"

Onun sözlərinə görə, ermənilər azərbaycanlıları soyqırımı törətməkdə əsassız ittiham edirlər. SİTAT: "Gəlin araşdıraq. 1918-ci il. Stepan Şaumyan və onun dinc Azərbaycan əhalisini doğrayan, qətlə yetirən başkəsənləri. Etnik azərbaycanlıları ki, onlar silahsız idilər. Ermənilər total soyqırımı siyasəti həyata keçirirdilər. Digərləri ilə yanaşı ermənilər 3 min dağ yəhudisini qətlə yetirdilər ki, onlar Azərbaycana qarşı loyal idilər. Soyqırımı!!!

Ardına baxa bilərik. Birinci Qarabağ müharibəsi. Xocalıda soyqırımı!!! Etnik təmizləmələr, azərbaycanlıların 1987-ci ildə Qafandan qovulmaları. Azərbaycanlıların Ermənistanın və Qarabağın bir çox şəhərlərindən və kəndlərindən qovulmaları. Yəni




etnik təmizləmə siyasəti, çoxsaylı qətllər".

"Dörd min azərbaycanlı və dağ yəhudiləri 25-30 ildir ki, Ermənistanda qul kimi saxlanılırlar!"

İsrailli politoloq həmçinin diqqəti ona yönəltdi ki, Ermənistan əsrin dörddə bir hissəsindən çoxdur ki, minlərlə dinc Azərbaycan vətəndaşlarını əsirlikdə saxlayır.

"Ən azı 4 min etnik azərbaycanlıların və dağ yəhudilərinin bu günə qədər əsir saxlanmaları. Onlar həmin insanlardırlar ki, itkin düşmüş sayılırlar, bəzi əsaslı məlumatlara görə, onlar sağdırlar. Və onlar 25-30 ildir ki, quldurlar. Onları ələ salır, məhv edir, əzab verirlər... Çoxusunu artıq öldürüblər", deyə Mixail Finkel deyib.

"Vandallıq və soyqırımı ittihamlarından danışarkən. Qarabağdakı məscidləri donuzxanalara və mal tövlələrinə döndərən kimdir? Kim azərbaycanlıların bir çox qəbirlərini dağıdıb? Kim bütün Qarabağda milyonlarla minaları basdırıb?", deyə hüquq elmləri doktoru, israilli ekspert Mixail Finkel sual edib.

***Rövşən RƏSULOV***

AKTUAL+ŞƏRH

# Dörd günlük müharibə - Azərbaycanın qürur tarixi

***Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı Aprel döyüşlərindən 6 il ötür. 2016-cı il aprelin 2-də quduzlaşmış Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin, minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçərək. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı.***



ELMAR ƏHMƏDOV, YAP Səlyan rayon təşkilatının sədri

Prezident, Ali Baş Komandan İlham Əliyev Aprel döyüşlərini dövlətimizin, ordumuzun, xalqımızın gücünün göstəricisi olduğunu bildirib: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir".

Bu sevinc, bu qələbə güclü ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu, proqmativ siyasətinin nəticəsində əldə olundu. Çünki güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Və aprelin 2-dən başlayaraq Ermənistanın hərbi hissələrinin təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin bütün cəbhəboyu mövqelərini iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutaraq qoşunların təmas xəttində növbəti təxribatların uğurla qarşısının alınması, məhz müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlarının, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusunun olmasının nəticəsidir. Daha dəqiq desək, Azərbaycanın şanlı silahlı qüvvələrinin cəbhədə əldə etdiyi zəfərləridir. Əslində, bu, gözlənilən idi. Çünki uzun müddət idi ki, işğalçı Ermənistan rəhbərliyi, bu rejimin Qarabağdakı yedəyi - "Dağlıq Qarabağ Respublikası" separatçıları zaman-zaman özlərinə güvənən bəyanatlarla çıxış edir, "qüdrətli və məğlubedilməz erməni ordusu"nun imicini reklam etməklə siyasətdəki yerlərini möhkəmləndirməyə çalışsalar da, yenə də Azərbaycan ordusu onları zamanında yerlərinə oturtdu və dərslərini verdi.

Ordumuzun qəti zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı. Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılması təmin edildi.

Azərbaycan tarixinin qürurverici səhifələrindən biri olan 2016-cı il aprel döyüşləri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində parlaq tarixi qələbələrlə tarixə qəhrəmanlıq salnaməsi kimi həkk olundu. 2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, qüdrətli Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi.

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinə start verilməsi oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə "Böyük Qayıdış" prosesinə start verildi. Artıq bu kəndin əhalisinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına bütün xalqımızda dərin inam yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təmas xəttinə gedərək, Ermənistan ordusunun atəşləri nəticəsində yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və Ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı.

Eyni zamanda, Aprel zəfəri illərlə yaradılan "məğlubedilməz erməni ordusu" mifini dağıldı və bir daha erməni xalqı işğalçılıq siyasətinin iflasa uğradığını dərk etdi. Və bir daha erməni xalqı artıq bilir ki, Azərbaycan torpaqlarında onlara yer yoxdur. Həmçinin, rməni xalqı, eyni zamanda, dünya ictimaiyyəti də başa düşdü ki, işğal edilmiş ərazilərin hərb yolu ilə azad edilməsi mümkündür. Azərbaycan xalqı, dövləti və ordusu buna tam qadirdir.

Həmişə öz xalqının arxasında dayanan ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev torpaqlarımızın işğaldan azad edilməsi yolunda fədakarlıq göstərən müharibə əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, veteranlara qayğısına daima diqqətdə saxlayıb. Məhz ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə Azərbaycan hərbçilərini xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görüldü.

Müdrik insanların dəfələrlə söylədiyi "Siyasətin ədalətli, siyasətçinin adil olması onu dəstəkləyənlərin sırasına baxanda məlum olur" - ifadəsi bu gün Azərbaycanda öz təsdiqini tapır. Çünki bizim dövlətin yeritdiyi siyasət də, dövlət başçımızın siyasi fəaliyyəti də dünyanın hər yerində, işğalçı Ermənistan istisna olmaqla, hamı tərəfindən dəstəklənir. Xarici siyasətimizin beynəlxalq aləmdə təqdir olunması, Siahlı Qüvvələrimizin Ali Baş Komandanının ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində nümayiş etdirdiyi qətiyyət, Milli Ordumuzun işğalçı dövlətin təxribatlarına tutarlı cavab verərək düşmənin geri çəkilməsinə nail olması və bu kimi bir sıra başqa amillər həm ölkə əhalisi, həm də dünya ictimaiyyəti tərəfindən böyük hörmət və ehtiramla qarşılanır. Çünki Azərbaycanın igid oğul və qızları Vətənin şərəfini öz qeyrətləri ilə qoruyub, qanları ilə müdafiə etdilər. 2 Aprel xarici uğurlu qələbəmiz də, məhz Azərbaycan dövlətinin, Azərbaycan ordusunun, Ulu Öndər Heydər Əliyev siyasətinin təməlində dayanan, və ölkə başçısı, Ali Baş Komandanımız Cənab İlham Əliyevin davam edən, yaşadılan tərəqqinin məntiqi nəticəsidir! Və 2020-ci il, 27 sentyabrda növbəti hərbi təxibata əl atan erməni silahlı qüvvələrinə Azərbaycanın tutarlı və dağıdıcı əks-hücum əməliyyatlarının hədəfinə çevrildi, 44 gün ərzində erməni ordusu adında heç nə qalmadı.

Bir sözlə, Aprel döyüşləri Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyətini nümayiş etdirdi, Prezident, Ali Baş Komandan İlham Əliyevin hərbi sahəyə göstərdiyi diqqətin, silahlı qüvvələrin işğal olunmuş əraziləri istənilən an azad etmək bacarığının göstəricisi oldu.Bir sözlə, Aprel döyüşləri zamanı qazandığımız şanlı qələbə sübut etdi ki, Azərbaycan Silahlı Qüvvələri tez bir zamanda işğal altındakı bütün ərazilərimizi azad etmək gücündədir. Bu döyüşlər Azərbaycanın tarixində uğurlu hərbi qələbəmiz kimi qalacaq.

# "Aprel zəfəri bizim II Qarabağ zəfərinin təməlini qoydu"



***"Aprel zəfəri bizim II Qarabağ zəfərinin təməlini qoydu". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib. Onun sözlərinə görə, həmin dövrdə dəyərli vətən övladları torpaqlarımızın müstəqilliyi uğrunda canlarından keçərək Lələtəpə yüksəkliyini azad etdilər: "Aprel döyüşləri Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış döyüşlərdən biridir.***

Bu döyüş qeyd etdiyim kimi, 44 günlük Zəfərimizin və qələbəmizin təməli oldu. Həmin dövrdən başlayaraq Azərbaycan yeni bir inkişaf mərhələsinə qədəm qoydu. Bu gün Azərbaycan xalqı hələ də bu zəfəri yaşayır və həmin günlərdə Azərbaycan oğullarının göstərdiyi qəhrəmanlıqları unutmur. Bu baxımdan illər keçsə də Aprel zəfəri unudulmayacaq, hər zaman Azərbaycan xalqının yaddaşında olacaq. Aprel döyüşlərində qəhrəmancasına şəhid olan vətən oğullarını hörmətlə yad edəcək. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bu qələbənin əhəmiyyətini Azərbaycan xalqı heç zaman unutmayacaq. Bu tarix öz reallığını daim qoruyacaq".

***Abutel İlhamqızı***

# Britaniya səfiri: "Regionda sülh üçün minalar təmizlənməlidir"

***Regionda sülh üçün yeni minaların yerləşdirilməsi dayandırılmalıdır. SİA-nın məlumatına görə, bunu Humanitar Mina Fəaliyyəti və Davamlı İnkişaf Məqsədləri üzrə beynəlxalq konfrans zamanı jurnalistlərə açıqlamasında Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp deyib.***



O qeyd edib ki, əsas məqsəd olaraq gələcəyə fokuslanmaq lazımdır. "Bölgədə sülhün təmin edilməsi üçün minaları təmizləmək və yeni minalar yerləşdirməmək lazımdır", - deyə C.Şarp qeyd edib.

Səfir əlavə edib ki, Böyük Britaniya BMT-nin İnkişaf Proqramına göstərdiyi yardım sayəsində bir sıra britaniyalı ekspertlər ANAMA-ya öz dəstəyini nümayiş etdiriblər.



# Ramazan ayı şəfqət və mərhəmət ayıdır!

***Milli mənəvi dəyərlərimiz, adət-ənənələrimiz xalqımızın tarixində, özünüdərkində mühüm əhəmiyyət daşıyır. Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, istər sovet məkanında, istərsə də müstəqillik dövründə yaşadığımız illərdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasına və inkişafına çox böyük önəm verib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğrula davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdəki multkultural dəyərələri, tolerant mühiti dünyaya bəyan edir.***

Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri birgə yaşayır və ölkəmizin uğurlu inkişafına töhfələrini verirlər. Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə də olan münasibəti də əməli fəaliyyətdə aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən dini ocaqlarımıza məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Bu gün Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənələrinə də böyük hörmətlə yanaşan bir ölkədir. Dövlət başçısı mütəmadi olaraq din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir, dini ibadət yerləri təmir-bərpa olunub inanclı insanların istifadəsinə verilir. Ölkə ərazisində 2200-dən artıq məscid fəaliyyət göstərir. Respublikamızda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Bu gün ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb.

Müstəqil dövlətimizdə Azərbaycan xalqının milli və dini mərasimləri, bayramları hər il dövlət səviyyəsində qeyd olunur. Bildiyimiz kimi, aprelin 02-dən orucluq ayı başlanılır. Ramazan ayı ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Fətva qəbul edib. Fətvada deyilir ki, Ramazan ayı insanlara doğru yol göstərən, doğru yolu və haqqı batildən ayırmağı açıq-aşkar dəlillərlə bəyan edən Quranın nazil olduğu aydır. Sizdən hər kim o aya yetişsə oruc tutsun.. Qafqaz Müsəlmanları İdarəsinin müvafiq sorğusuna əsasən Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına görə, bu il üfüqümüzdə hilalın (təzə Ayın) aprelin 1-i görünməsi Ramazan ayının 1-i miladi təqvimlə 2022-ci il aprelin 2-nə təsadüf edir.

Oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşayırlar. Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır. İslamda ilin ayları arasında ən şəfaqətli və ən müqəddəs ay hesab edilən Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır ki, Azərbaycan xalqı da bu ay ərizində əmin-amanlıq, qardaşlıq kimi dəyərləri nümayiş etdirmiş olacaq. Oruc tutmaqla insanlar iradə qüvvələrini, dözümlüyünü, təmiz olduqlarını da göstərə biləcəklər. Müsəlmanlar bu ayda Allah və din qarşısında borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanacaqlar.

İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynayıb.

Xalqımız artıq ikinci ildir ki, Ramazan ayına qalib xalq, Vətən və şəhadət eşqi sayəsində 30 illik işğala son qoymuş millət kimi qədəm qoyur. Fətvada qeyd olunur: "Bizə bu səadəti yaşatdığına görə orduövlət-xalq birliyinə güvənən müzəffər sərkərdə və Ali Baş Komandan İlham Əliyevə sonsuz dualar edirik. On bir ayın sultanı olan Ramazani-şərif duaların qəbul olunduğu aylardandır. Mübarək ayın verdiyi bu fürsətdən istifadə edərək əzəli torpaqlarımıza Böyük Qayıdışın təmin olunması, viran qoyulmuş ərazilərimizə yeni nəfəs verilməsi, Qarabağda müasir həyat şəraitinin qurulması, vandalizmə məruz qalmış dini məbədlərin, məscidlərin bərpa edilməsi istiqamətində fövqəladə zəhmətlərinə görə dövlətimizin başçısı, Zati-aliləri, Prezident İlham Əliyevə, eləcə də ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya Azərbaycan dindarları adından dərin minnətdarlığımızı bildirir, bu mübarək günlərdə onlara ən böyük İlahi nemət olan cansağlığı diləyirik".

Mənəviyyat və əxlaqın zənginləşməsində oruc ibadəti insanın daxili saflığına, pis vərdişlərdən uzaq durmasına, Allah yolunda xeyirxah işlər görməsinə, fiziki və mənəvi cəhətdən sağlam olmasına səbəb olur. Oruclua ibadəti yardımlaşmanı artıran, daxili dəyanəti gücləndirən İlahi qüvvəyə malikdir. Mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazan ayı ərzində iftar süfrələri açmaq, yardım və xeyriyyəçilik etmək, ehtiyacı olanlara, kimsəsiz insanlara, uşaq evlərinə, ahıl və qocalara imkan daxilində köməklik göstərmək Allah nəzərində bəyənilən əməllərdəndir.

Fətvada qeyd olunduğu kimi, Quran tilavəti, valideynlərin qayğısına qalmaq, dünyasını dəyişənlərin ruhlarını yad etmək, elm-irfan və ibadətlə məşğul olmaq bu ayda ən böyük savabdır: "Tövsiyə edirik ki, bu mübarək günlərdə torpaqlarımız, Vətənimiz uğrunda canlarını fəda edən qəhrəman şəhidlərin xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, şəhid və qazi ailələrinə qayğı və diqqət göstərilsin."

Hər il olduğu kimi, bu il də Qafqaz Müsəlmanları İdarəsi mübarək Ramazan ayının gündəlik duaları, imsak-iftar vaxtlarını əks etdirən xüsusi təqvim tərtib edib. Oruc ibadətinin mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Qazılar Şurasının qənaətinə görə, adambaşına 10-15 manat fitrə zəkatının verilməsi məsləhət görülür. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir. Ramazan bayramı may ayının 2-nə təsadüf edir. Allah oruc və namazlarımızı qəbul etsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycanı Avropa İttifaqı ilə nə bağlayır?

***"Azərbaycan dövləti bütün tərəfdaşları ilə səmimi, praqmatik, eyni zamanda milli maraqlara uyğun xarici siyasət yürüdür". Bu fikirləri SİA-ya açıqlamasında Trend BİA-nın Baş direktor müavini, siyasi ekspert Sahil Kərimli bildirib.***

Onun sözlərinə görə, son illər ölkəmizin Avropa İttifqı ilə münasibətləri bu baxımdan xüsusi əhəmiyyət daşıyır: "Avropa İttifaqı ilə tərəfdaşlıq sənədinin imzalanması üzərində ciddi iş gedir, böyük ehtimalla tezliklə Azərbaycanın maraqlarını tam təmin edəcək sənəd imzalanacaq. Təkcə son bir ildə Azərbaycan Prezidenti İlham Əliyevin Aİ rəhbəri Şarl Mişellə görüşləri, əldə edilən razılaşmalar, həmçinin Avropanın aparıcı dövlət başçıları ilə görüşlər, qarşılıqlı danışıqlar, fikir mübadiləri deməyə əsas verir ki, ölkəmizin Avropa İttifaqı ilə əlaqələri yüksək səviyyədədir.

Azərbaycan bölgədə xüsusi söz sahibidir, Prezident İlham Əliyev nəinki regionda, dünyada güclü lider, qətiyyətli dövlət xadimi, güvənilən və etibar edilən siyasətçidir. Bütün bu amillər ölkəmizin dünyada çəkisini və əhəmiyyətini durmadan artırır. 44 günlük Vətən Müharibəsində qazanılan tarixi Zəfərdən sonra Azərbaycan tamamilə yeni reallıqlar yaradıb və bu bütün dünya, o cümlədən Avropa tərəfindən qəbul edilir. Aİ ölkələri Azərbaycanın haqqlı mövqeyi ilə razılaşır. Bir məqamı da xüsusi vurğulamaq lazımdır ki, son bir ayda Rusiya ilə Ukrayna arasında yaranan hərbi qarşıdurma fonunda Avropa İttifaqı liderləri dəfələrlə Azərbaycan Prezidenti ilə təmaslar yaradıb, bölgədə yaranan təhlükəli proseslər müzakirə olunub, cənab İlham Əliyevlə məsləhətləşmələr aparılıb.



Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərində iqtisadi-ticari əlaqələr də yüksələn xəttlə inkişaf edir. Ölkələrimiz arasında idax-ixrac əməliyyatları hər il sürətlə artır, investisiya imkanları genişləndirilir, iqtisadi əlaqələr şaxələndirilir. Xüsusilə də Azərbaycan son illərdə Avropanın əvəzedilməz enerji təminatçısına çevrilib. Bu gün Avropanın qaz və elektriklə təminatında Azərbaycanın çəkisi artıb. Aİ ölkələri gələcəkdə təchizatın artırılması üçün ölkəmizlə mütəmadi danışıqlar aparır. Hesdab edirəm ki, bütün bunlar əlaqələrin daha da inkişafına zəmin yaradacaq, Aİ ilə həm iqtisadi, həm ticari münasibətlər gələcəkdə də müsabət yöndə inkişaf edəcək.

Avropa İttifaqı Ermənistanla sülh müqaviləsinin imzalanması və son zamanlar Qarabağ ətrafında gedən proseslərin nizamlanmasında da Azərbaycanın mövqeyini dəstəkləyir. Düzdür, bəzən bir sıra Aİ ölkələrinin haqsız mövqeyinə və əsassız bəyanatlarına da rast gəlinir. Bunlar, sözsüz ki, münasibətlərə müəyyən mənada xələl gətirə bilər. Bu tip xoşagəlməz halların aradan qaldırılması üçün Aİ ölkələri Ermənistana ciddi təziqlər göstərsə, daha yaxşı olardı. Azərbaycanın haqqlı mövqeyi Aİ üçün bəllidir. Söhbət Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətdən gedir və Qarabağda fəaliyyət göstərən qanunsuz erməni silahlı dəstələri dərhal ərazidən çıxarılmalıdır. Ermənistan heç bir şərt irəli sürmədən Azərbaycanla sülh müqaviləsinin imzalanmasına, sərhədlərin delimitasiya və demarkasiyasına, kommunikasiyaların açılmasına razılıq verməldir".

***Abutel İlhamqızı***

# Maşında tibbi çantanın olması NƏ ÜÇÜN VACİBDİR?

"Avtomobillərdə tibbi çantanın olması ilk tibbi yardım üçün zəruridir. Bu qanunvericiliklə tənzimlənən bir məsələdir". Bu sözləri SİA-ya açıqlamasında yol hərəkəti qaydaları üzrə ekspert Elməddin Muradlı bildirib.

Onun sözlərinə görə, düşünürəm ki, bütün sürücülər bu prosesə diqqət etməlidirlər: "Vaxtında tibbi çantanın içərisindəki tibbi ləvazimatları yoxlamaq lazımdır. Çünki Səhiyyə Nazirliyi ilə birlikdə müəyyən ixtisarlar edilib və orada çox az miqdarda dərman və dərman preparatları var. Onlar yol-nəqliyyat hadisəsi zamanı sürücünün və xəsarət alan digər şəxsin həyatı üçün önəmlidir.



Ümumiyyətlə bu tibb çantasının avtomobildə olması bir yana sürücülərin, sərnişinlərin və digər hərəkət iştirakçılarının bu çantadakı ləvazimatlardan istifadə qaydalarının təbliğatına böyük ehtiyacı var. Düşünürəm ki, bu istiqamətdə zəruri addımlar atılmalıdır. KİV və sosial şəbəkələr vasitəsilə təbliğat aparmaq lazımdır. İnsanlar bu çantanın faydasını və istifadə etməyi də öyrənsinlər. Bundan sonra hər kəs tibbi çantaların faydalarını görəcək. Çünki bəzən bu cür tibbi çantalar hadisə zamanı can qurtarmağa kömək edə bilər. Düzdür, bəzən ağır qəzalar baş verir ki, bu zaman o tibbi çantaların da bir köməyi olmur. Amma elə qəzalar var ki, bu tibbi çantaların böyük əhəmiyyəti ola bilər. Kiçik xətalardan insan ölə və ya ömürlük şikəst qala bilər. Buna görə bu tibb çantalarının avtomobildə olmasını təmin etmək lazımdır. Eyni zamanda istifadə qaydalarının öyrənilməsinin təmin edilməsi vacibdir".

***Səbinə Hüseynli***

***Bütün əhali qruplarının, etnosların, irqi, milli, etnik, yaxud dini əlamətlərinə görə tamamilə və qismən məhv edilməsi soyqırım, genosid deməkdir. Azərbaycan xalqı ermənilər tərəfindən bütöv bir əsr boyu bu cür soyqırıma məruz qalmışdır. Ermənilərin Azərbaycan torpaqlarında törətdiklər terrorçuluq, işğalçılıq, soyqırımı bunu təsdiqləyir. Tarixə diqqət etsək görərik ki, iki yüz ilə yaxın bir dövrdə təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı yeridilən soyqırımı siyasətinin acı nəticələrini yaşamışıq. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində xalqımız misli görünməmiş faciələr yaşamışdır.***

# Başlıbel qətliamı

## *1993-cü ilin aprel ayının 2-də baş verən hadisədən 29 il ötür*

1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğın Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqının dinc həyatına ağır zərbələr vurmuşdur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini gösətərmiş olur. Mart hadisələri - Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir. 1992-ci ilin Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri kimi yazıldı. 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən Qaradağlı qətliamı da Qarabağ münaqişəsi zamanı baş vermişdir. Nəticədə, xeyli sayda mülki azərbaycanlı şəxslər ermənilər tərəfindən qətlə yetirilmiş, bir o qədər də əsir alınmışdır. 117 nəfər əsir alınmış, 66-90 nəfər mülki şəxs isə qətlə yetirilmişdir. Öldürülənlərdən 21-i ahıl və qocalar, 10-u qadın, 8-i məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb. Tariximizdə belə hadisələr kifayət qədərdir.



Tarix təkrarlanıb. Azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq məqsədi ilə ideyalarının reallaşdırmağa can atıblar. Ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçiriblər. İyirminci yüzillikdəki tarixi yolumuza nəzər salaq görərik ki, 1905-1907, 1918-1920, 1948-1953 və 1988-ci ildən baş verənlər erməni faşizminin xalqımıza qarşı olan çirkin niyyətlərinin göstəricisidir.

### DİNC SAKİNLƏRDƏN 14 NƏFƏR GİROV GÖTÜRÜLÜB, 18 NƏFƏR QƏTLƏ YETİRİLİB

Bu faciələr sırasında Kəlbəcər rayonunun ən böyük kəndlərindən biri olan Başlıbeldə törədilən qətliamdır ki, həmin tarixdən bu gün artıq 29 il ötür. 1993-cü ilin aprel ayının 2-də baş verən hadisə zamanı Başlıbelin kənd sakinlərinin bir qrupu mühasirədən çıxmağa çalışsalar da, buna nail ola bilməyiblər. Bu zaman sakinlərdən 9 nəfər yolda qətlə yetirilib, 5 nəfər girov götürülüb. Digər 62 nəfər isə dağlara çəkilərək kahalara sığınmaqla özlərini qorumağa çalışıblar. Amma onlar cəmi 18 gün gizli yaşaya biliblər. Aprelin 18-də erməni silahlı birləşmələri dinc sakinlərin sığındığı kahaların yerini aşkarladıqdan sonra onların üzərinə silahlı hücuma keçiblər. Həmin gecə kənddən bir qədər yuxarıda yerləşən "Portda" kahalarına sığınmış sakinlərin üzərinə amansız hücum zamanı dinc sakinlərdən 14 nəfər girov götürülüb, 18 nəfər qətlə yetirilib. Sağ qalan 30 nəfər isə sığınacaq yerlərini kəndin ərazisindəki digər kahalara dəyişərək mühasirə həyatını davam etdirib. Onlar 113 gündən sonra, iyulun 17-də sığınacağı tərk edərək yalnız gecələr hərəkət etməklə gizli dağ yolları vasitəsilə Ermənistan ordusunun mühasirəsindən çıxa biliblər.

2017-ci ildə başlayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Regional İnsan Hüquqları və Media Mərkəzi tərəfindən Başlıbel faciəsi: erməni vəhşilikləri şahidlərin dili ilə layihəsinin icrasına başlanılmışdır. Layihə çərçivəsində Azərbaycan və ingilis dillərində Başlıbel faciəsi: erməni vəhşilikləri şahidlərin dili ilə kitabı nəşr edilmişdir. Kitabda ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklərdən biri - Başlıbel faciəsi ilə bağlı məlumatlar əksini tapmışdır. Nəşrdə Başlıbel kəndində törədilmiş qırğının canlı şahidlərinin fikirləri yer almış, mühasirədə qalan uşaq, qoca qadınların həyatını xilas etmək üçün böyük fədakarlıq göstərmiş şəxslərin xatirələri qeyd edilmişdir. Bütün bunlar faciə ilə bağlı məlumatların gələcək nəsillərə çatdırılmasında önəmlidir.

### ERMƏNİ FAŞİST İDEOLOGİYASININ MƏZMUNU DƏYİŞMİR

Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş komandanın siyasi iradəsi, dövlətimizin gücü, rəşadətli ordumuzun dönməzliyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı. 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsində Zəfər qazandıq. İşğal altında olan torpaqlarımız düşməndən azad olundu. 44 günlük müharibə dövründə də erməni vandallığının, terrorunun acılarını da yaşadıq. Vətən müharibəsi dövründə dinc insanlara, mülki əhaliyə qarşı etdikləri əməllər, işğaldan azad olan torpaqlarımızı tərk edərkən törətdikləri yanğınlar erməninin faşist ideologiyasının təzahürüdür. Ermənistanın ötən əsrin 90-cı illərində olduğu kimi, Vətən müharibəsində də törətdikləri terrorçuluq dünyanın nüfuzlu nəşrlərində və sosial şəbəkələrdə yer aldı. Ermənistanın beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə aldı.

### ZƏFƏRİ TARİXİMİZƏ YAZAN ALİ BAŞ KOMANDAN, MÜZƏFFƏR AZƏRBAYCAN ORDUSUDUR

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsi Zəfərimizi şərtləndirdi. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu nümayişi oldu. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusu Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunun təzahürüdür. Əlbəttə ki, Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Bu zəfəri tariximizə yazan Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Məktəblərdə şagirdlərə hüquqları necə öyrədilir?




"Şagirdlərə hüquqlarının öyrədilməsi istiqamətində məktəblərdə müvafiq təlimlər keçirilir. Eyni zamanda bu cür təlimlər müxtəlif qurumların və qeyri-hökumət təşkilatlarının əməkdaşlığı nəticəsində də həyata keçirilir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov bildirib.

Onun sözlərinə görə, BMT-nin Uşaq Fondu və UNİCEF-in Təhsil Nazirliyi ilə əməkdaşlığı çərçivəsində silsilə təlimlər təşkil olunur: "Əlbəttə ki, buna çox ciddi ehtiyac var. Eyni zamanda Azərbaycan Uşaq Hüquqları Üzrə Konvensiyaya da qoşulub. Birmənalı olaraq dövlətimiz uşaqların hüquqlarının qorunması məsələsinə böyük önəm verir. Eyni zamanda Təhsil Nazirliyinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi əməkdaşlığı çərçivəsində də mütəmadi olaraq tədbirlər keçirilir. Düşünürəm ki, mütləq şəkildə bu cür tədbirlərin keçirilməsinə ciddi ehtiyac var. İstər BMT, istərsə də İnsan Hüquqları üzrə Ali Komissarlığı ilə əməkdaşlıq çərçivəsində məlumatlandırıcı tədbirlərin keçirilməsini genişləndirmək lazımdır. Düşünürəm ki, mütləq şəkildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlığın genişləndirilməsi də bu istiqamətdə atılan mühüm addımlardandır.

Bizim bugünkü məktəblilər gələcəyin vətəndaşlarıdır. Onlar başa düşməlidirlər ki, Azərbaycanın gələcəyi olaraq öz hüquqlarını bilməlidirlər. Hansı ki, bəzi məsələlər var ki, onlar mütləq bilməlidirlər. Əlbəttə ki, hüquqlarının pozulması, məhdudlaşdırılması kimi hallar baş verdikdə onlar bunun qarşısını almağı bacarmalıdırlar. Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyalar, beynəlxalq qurumlar var ki, onlar da bu istiqamətdə Azərbaycanla birgə əməkdaşlıq edir və öhdəliklər götürür. Uşaq hüquqlarının qorunması ilə bağlı Azərbaycanda qanunvericilik kifayət qədər mükəmməldir. Dünyanın bu istiqamətdə qabaqcıl təcrübəsi həmin o qanunvericilikdə öz əksini tapıb. Azərbaycan doğurdan da uşaq hüquqlarının müdafiəsi ilə bağlı dünyada ən yaxşı nümunəyə malik ölkələrdən biridir. Əlbəttə ki, bu təlimlər mütəmadi olaraq keçirilməlidir. Eyni zamanda bəzən Azərbaycanda uşaq aylığı keçirilir. Hansı ki, həmin uşaq aylığı çərçivəsində də bu tədbirlər, işlər həyata keçirilir. Hesab edirəm ki, mütləq şəkildə bunların daha da genişləndirilməsi istiqamətində tədbirləri davam etdirmək lazımdır".

***Səbinə Hüseynli***

# “Belə olarsa Rusiya müharibəni dayandırmaq üçün razılığa gələ bilər”



**Hərbi ekspert Ramil Məmmədlinin SİA-ya verdiyi müsahibəsini təqdim edirik:**

***- Rusiya Ukrayna müharibəsi necə gündür davam edir. Bu müharibənin qalibi kim olacaq? Müharibənin sonu necə nəticələnəcək?***

- Rusiya Ukrayna müharibəsinə bir neçə aspektdən baxmaq lazımdır. Bu müharibə digər müharibələrdən, həmçinin bizim müharibədən fərqlənir. Azərbaycan əraziləri işğal altında idi və Azərbaycan ordusu ərazilərini işğaldan azad etmək üçün bəlli istiqamətdə, məlum səbəblərdən hərbi əməliyyatlara başladı. Torpaqları işğaldan azad etdi. Ukraynada gedən müharibənin isə formatı tamamilə fərqlidir. Bu müharibə Rusiya Ukrayna müharibəsi deyil, bu Ukrayna ərazisində Rusiya-Amerika və onun müttəfiqləri arasında gedən müharibədir. Biz bunu hərbi əməliyyatlar başlayandan sonra hiss etdik. Bir müddət sonra isə faktlarla bunun şahidi olduq. Ona görə bu müharibəni Ukraynada gedən müharibə kimi qeyd edirəm. Bir mənalı olaraq deyə bilərik ki, Ukrayna ərazisində Rusiya ordusunun əsgəri ilə yanaşı amerikan əsgəri də döyüşür, bəzi Qərb ölkələrinin əsgərləri də döyüşür. Ukraynadakı müharibəni idarə edən birmənalı olaraq Qərbdir. Amerika, Böyük Britaniya, Almaniya və digər tərəf Fransadır. Digər tərəfdə isə Rusiya və onun müttəfiqləri dayanır. Onun müttəfiqləri İrandır, Çindir.

***- Bəs NATO niyə bu müharibəyə qoşulmur?***

- Amerika və digər üzvlər NATO üzvləridir, onlar ayrı-ayrılıqda bu müharibədə iştirak edirlər. NATO-nun bir qurum olaraq bu müharibədə iştirak etməsi 3-cü dünya müharibəsinin miqyasının genişlənməsinə gətirib çıxara bilər. NATO açıq şəkildə Rusiya ilə qarşı-qarşı gəlməkdən çəkindi. Əlbəttə bunun bir neçə səbəbi var. Birinci səbəb odur ki, müharibənin daha geniş miqyas almasını istəyir. İkinci səbəb odur ki, Ukraynanın poliqona çevrilməsini istəmir. Üçüncü səbəb isə odur ki, müharibə bitdikdən sonra münasibətlərin normallaşması üçün cığır yolu qalsın. Düşünürəm ki, bu müharibə dünyada yeni dövrün başlanğıcıdır, yeni xəritələrin cızılmasıdır. Hesab edirəm ki, müharibədən sonra bir çox şey fərqli formada olacaq.

Bu müharibə Qərbin təbliğat vasitəsidir. Bu təbliğat Rusiyaya da sərf edir, Polşanın və Baltikyanı ölkələri qorxu altında saxlamaq üçün Rusiyanın xeyrinə işləyən dezinformasiyadır. Amma unutmayaq ki, bu ərazilərdə də NATO üzvləridir. Bu ərazilərdə baş verən hərbi əməliyyatlar xüsusilə də Rusiyanın ora müdaxiləsi məsələlərə başqa format qata bilər.

***- Rusiya ilə Ukrayna arasında hərbi əməliyyatlar dayana bilərmi?***

- Ukrayna Donetsk, Luqansk və Krımın öz əraziləri olmadığını bəyan etməlidir. Krımın Rusiyaya aid olduğunu, həmçinin Donetsk və Luqanski isə müstəqil dövlət olmasını tanımalıdır. Belə olarsa Rusiya müharibəni dayandırmaq üçün razılığa gələ bilər. Əks təqdirdə isə hərbi əməliyyatların miqyası bu şəkildə davam edəcək. İndi format biraz dəyişib. Əvvəl Rusiya sürətli hücum əməliyyatlarını həyata keçirirdisə indi daha çox müdafiəyə üstünlük verir. Məqam gəldikdə isə əks hücum əməliyyatları həyata keçirir.

***- Belə bir məlumatlar var ki, dünya nüvə müharibəsinə hazırlaşır. Bu haqda nə düşünürsünüz?***

- Nüvə müharibəsi ilə bağlı məsələlər inandırıcı deyil. Ola bilər ki, müəyyən hədələr olsun. Amma düşünürəm ki, bu proses baş versin. Çünki bunun fəsadları çox ağır olacaq. Həm də Ukraynanın bəzi ərazilərində ruslar yaşayır. Bu proseslərin Azərbaycana həm müsbət, həm də mənfi təsiri var. Mənfi təsiri odur ki, Azərbaycan kütləvi şəkildə soydaşlarını qəbul etmək məcburiyyətində qaldı. Bu isə iqtisadi xərclər hesabına meydana çıxır. Həmçinin bir sıra iqtisadi məsələlər, hərbi layihələr təxirə salındı. Müsbət tərəfi isə odur ki, Azərbaycan keçmiş SSRİ məkanında, həmçinin regionda öz əhəmiyyətini sübut edə bildi. Regionun yeni quruluşunda öz mövqeyini və öz yolunu göstərdi. Sübut etdi ki, keçmiş SSRİ məkanında azsaylı müstəqil dövlətlərdən biridir.

***- Qarabağda vəziyyət yenidən gərginləşir. Sizcə bu gərginlik hansı həddə kimi çatacaq və nə ilə nəticələnə bilər?***

- Bu gün Ermənistanda daxili ictimai-siyasi vəziyyət o qədər də qənaətbəxş deyil. Bundan əlavə Ermənistan Silahlı Qüvvələri ordusunda problemlər var. Çünki itkilər tam bərpa olunmayıb. Azərbaycan ordusu ilə müharibə apara biləcək texnikaya malik deyillər. Həmçinin hərbi qulluqçuların döyüş hazırlığı yüksək səviyyədə deyil. Ən əsası isə Ermənistanın psixoloji vəziyyəti yerində deyil. Bütün bunlar Ermənistanın Azərbaycana qarşı hərbi əməliyyatların başlamayacağına bir nümunədir. Azərbaycanda isə tamam fərqli vəziyyətdir. Ordu davamlı olaraq işğaldan azad edilmiş ərazilərin təmizlənməsi, təhlükəsizlik zolaqlarının qorunması ilə məşğuldur. Bu baxımdan ermənilər Qarabağda təxribatlar törədərək beynəlxalq ictimaiyyətin diqqətini regiona yönəltmək istəyir.

Ermənistanın siyasi həyasızlıqları həqiqəti əks etdirmir. Əgər Azərbaycan hərbi əməliyyatlara başlasa idi məhz elə Fərrux istiqamətində Fərrux zirvəsini nəzarətə götürəndən sonra şimal istiqamətində Xocalının Ballıca qəsəbəsinə qədər əraziləri, cənub istiqamətindən isə Şuşaya qədər olan bütün istiqamətləri təmizləyərdi.

Fərrux zirvəsi Əsgəran şəhərinin cənub istiqamətində yerləşir. Fərrux zirvəsi strateji xarakter daşıyır. Həmçinin Xocavəndə qədər olan əraziyə nəzarət etmək imkanı yaranır. Biz bu yüksəkliyin 1-ci Qarabağ müharibəsində hansı itkilər hesabına nəzarət etdiyimizi yaxşı bilirik. Yüzlərlə hərbi qulluqçu bu istiqamətdə şəhid olub. Düşünürəm ki, Azərbaycan həmin ərazidə nəzarəti gücləndirməklə Ermənistanın Qarabağdakı layihələrinin üzərindən bir xətt çəkmiş oldu. Çünki biz Qarabağın dağlıq hissəsinin yalnız keçmiş Ağdərə rayonu istiqamətindən, yəni Talış kəndi, Suqovuşan kəndi və Suqovuşan bölgəsi ərazisindən daxil olmuşuq. Həmçinin Hadrut və Xocavənd istiqamətindən daxil olmuşuq. Lakin Qarabağın mərkəz hissəsini, yəni Xocalı rayonunun dərinliyinə doğru hər hansı mövqeyə irəliləməmişdik. Bu bir ilkdir. Bu hadisə ermənilər üçün ciddi narahatlıq yaradan bir məsələdir. Bu ərazilər olduqca strateji əhəmiyyətə malikdir.

***Abutel İlhamqızı***

# Erməni general-polkovniki reallığı etiraf etdi



## Movses Akopyan: ”Mən də kapitulyasiya sənədinə imza atardım, biz darmadağın olmuşduq”

2020-ci ilin 10 noyabr tarixində Ermənistanın imzaladığı kapitulyasiya sənədinin ardınca Ermənistanda hazırda da mövcud olan revanşist qüvvələr Paşinyan hakimiyyətini xəyanətdə suçlayır və müharibənin davam etdirilməsi tələbini irəli sürürlər. O cümlədən, kapitulyasiya sənədindən imtinanın edilməsi kimi fikirlər də gündəmə çıxarılır. Lakin belələrindən fərqli olaraq, hətta hərbi-siyasi dairələrdə belə, elə şəxslər tapılırlar ki, onlar 2020-ci ilin 10 noyabrında kapitulyasiya sənədinin imzalanmasından başqa çarənin olmadığını bildirirlər.

Habelə qeyd olunur ki, əgər həmin sənəd imzalanmasaydı, bu gün Ermənistanın xəritədəki mövcudluğu sual altında qala bilərdi. Eyni zamanda, əgər indi bu sənəddən imtina edilsə, bu da eyni nəticəni göstərə bilər. Yəni sənədlə bağlı spekulyasiyalara yol verməklə prosesi uzatmaq Ermənistan üçün heç də yaxşı nəticələrə gətirib-çıxarmayacaq.

”Biz 2020-ci ilin noyabrında darmadağın olmuşduq, mən də bu sənədə imza atardım”. SİA xəbər verir ki, bu fikirləri erməni KİV-lərinə Ermənistan silahlı qüvvələrinin sabiq Baş qərargah rəisi, general-polkovnik Movses Akopyan deyib. Onun sözlərinə görə, düşüncəli insanlar 2020-ci ilin 9 və 10 noyabr tarixlərində yaranmış situasiyanı qiymətləndirə bildilər və həmin sənəd imzalandı: ”Biz çox pis yerdə və vəziyyətdə idik, biz belə demək mümkündürsə, darmadağın olmuşduq”.

## ”Hər kəs anlayır ki, bu sənədə başqa alternativ yox idi... Azərbaycanla münasibətləri tənzimləmək vacibdir”

”Mən düşünürəm ki, sənəd gec imzalanıb. Lakin istənilən halda alternativ yox idi”, deyən erməni general-polkovniki əlavə edib ki, ən azından onun özü cəbhədə necə situasiya yarandığını yaxşı bilir: ”Mən davamlı olaraq kuluarlarda bu barədə danışıram. İndi isə canlı efirdə deyə bilərəm ki, əgər mən hakimiyyətdə olsaydım, eynilə həmin sənədi imzalayardım. Bundan əlavə, deməliyəm ki, müxalifət də bu sənəddən imtina etmir. Seçkilər ərəfəsində onlar da hakimiyyətə gələcəyi halda, sənəddən imtina etməyəcəklərini deyirdilər. Çünki hər kəs anlayır ki, bu sənədə başqa alternativ yox idi”.

Akopyana görə, indi bu sənədi dəyişməyin, başqa cür təqdim etməyin mənası yoxdur: ”Bu, yeni gərginliyə səbəb ola bilər ki, biz buna təəssüf ki, hazır deyilik. Və bu gün danışıqlar kritik dərəcədə vacibdir. Azərbaycanla münasibətləri tənzimləmək əhəmiyyətlidir. Hər gün bu istiqamətdə işləmək lazımdır”.

Göründüyü kimi, sağlam düşüncə ilə düşünmək və keçmiş səhvlərdən nəticə çıxarmaq insan üçün lazımi bir xüsusiyyətdir. Lakin erməni general-polkovnikindən fərqli olaraq bu günün özündə belə üçtərəfli bəyanata zidd fikirlər bildirənlər, görünür, öz acı aqibətləri barədə düşünmək istəmirlər. Hər halda, onlar Movses Akopyanın fikirlərini dərk edib, sonuncu dəfə düşünməyə məhkumdurlar.

***Rövşən RƏSULOV***

# “Rəqəmsal İpək Yolu” layihəsi beynəlxalq diqqət mərkəzində



“Rəqəmsal İpək Yolu” (Digital Silk Way) layihəsi ”DubayEkspo”ümumdünya sərgisində və ”CapacityMiddleEast 2022” qlobal telekommunikasiya tədbirindətəqdim edilibvə beynəlxalq marağa səbəb olub.Layihənin məqsədi Azərbaycandan keçməklə Avropa və Asiyanı birləşdirəcək telekommunikasiya dəhlizininyaradılmasıdır. NEQSOL Holding-in təşəbbüsü ilə AzerTelecom tərəfindən həyata keçirilən layihə Azərbaycanda informasiya texnologiyalarının və rəqəmsal ekosisteminin inkişafı, eləcə də ölkənin regionun rəqəmsal mərkəzinə çevrilməsinə xidmət edir.

”Dubay Ekspo”daAzərbaycan Pavilyonunda ”Rəqəmsal İpək Yolu - Sərhədləri Aşan Bağlantı” tədbirində layihənin təqdimatı keçirilib. Tədbirə Transtelecom, Türk TelekomInternational, TelecomItaliaSparkle, TelekomMalaysia, GulfBridgeInternational - Telecom Qatar, OneWeb, Telegraph 42 ManagementGmbh, Fastweb, NTT və digər nüfuzlu beynəlxalq şirkətlərin nümayəndələri qatılıb.

Həmçinin, Dubayda ”CapacityMiddleEast 2022” tədbirində beynəlxalq tərəfdaşlar layihəyə böyük maraq göstərib. Google, Cienna, Lumen, Neterra, ChinaTelecomGlobal, ChinaMobileInternational, VodafoneCarrierServices, TurkcellSuperonline, VodafoneTurkey, Batelco, STC və digər iri beynəlxalq şirkətlərlə danışıqlar aparılıb. Layihə üzrə müxtəlif telekommunikasiya operatorları və təchizatçıları ilə əməkdaşlıq modelləri razılaşdırılıb və anlaşma memorandumlarının imzalanması nəzərdə tutulub.

Avropa ilə Asiya arasında Azərbaycan vasitəsilə formalaşan ”Rəqəmsal İpək Yolu” regiondarəqəmsallaşmanın və bağlantı xidmətlərinin inkişafına mühüm töhfə verəcək. Qlobal tədbirlərdə layihənin təqdimatı, faydalı müzakirələr və əldə olunan razılaşmalarbeynəlxalq tərəfdaşların ciddi marağını göstərib.Ölkənin enerji və nəqliyyat mərkəzləri statuslarına əlavə olaraq, layihə Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsinə də töhfə verəcək. ”Rəqəmsal İpək Yolu” layihəsi 2020-ci ildə ABŞ-da ”Qlobal Strateji İnfrastruktur Liderlik Forumu”nda Asiyada beş ən yaxşı strateji infrastruktur layihələrindən biri seçilib.

NEQSOL Holding-in tərkibində olan”AzerTelecom” Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur və ölkəni beynəlxalq internet şəbəkəsi ilə bağlayır.NEQSOL Holding beynəlxalq şirkətlər qrupusəkkiz ölkədə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərir.

# Rusiyalı iqtisadçı: “Rusiya və Azərbaycan milli valyutalarla hesablaşacaq”



### ”Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatında öz yerini tutmalıdır”

Dünən Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov Moskva və Bakının anti-Rusiya sanksiyaları fonunda cavab verməli olacağı ticarət-iqtisadi çağırışları açıqlayıb. Bunlar arasında milli valyutalarda hesablaşmalara keçidin mümkünlüyü, Azərbaycanda ”Mir” ödəniş sistemindən istifadə və s. Kimi tədbirlər var. Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun Postsovet Araşdırmaları Mərkəzinin elmi işçisi Aleksandr Karavayev ”Moskva-Bakı” portalına müsahibəsində sanksiya müharibəsi dövründə atılacaq zəruri addımlardan danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Dünyada davam edən iqtisadi böhrandan daha yumşaq çıxmaq üçün Rusiya və Azərbaycan hansı addımları atmalıdır? Azərbaycan digər məsələlərlə yanaşı Rusiyaya necə kömək edə bilər?**

- Hazırda hansı problemlərlə üzləşdiyimizi və onların həlli üçün hansı variantların mövcud olduğunu müəyyən etmək lazımdır. Əslində, Rusiya 2014-cü ildən Qərbin sanksiyaları altındadır və belə ”stressli” vəziyyətlərdə bir çox ölkələr, o cümlədən Azərbaycan, Türkiyə ilə vaxtaşırı milli valyutada hesablaşmalar həyata keçiririk. Biz bunu indi də davam etdirəcəyik, xüsusən də bu bənd Rusiya və Azərbaycan liderlərinin fevralda imzaladığı Müttəfiqlərin Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməyə daxil edildiyi üçün.

Rusiyaya qarşı tətbiq edilən sanksiyalarla, xüsusən də onun SWIFT-dən ayrılması, eləcə də Rusiyanın Visa və MasterCard kartlarının xaricdə fəaliyyətinin dayandırılması ilə əlaqədar Rusiya və Azərbaycanda bəzi problemlər yaranıb. Ölkələrimiz arasında ikitərəfli ticarəti həyata keçirən bankların üzərinə isə məlumatların ötürülməsi və ödənişlərin həyata keçirilməsi üçün yeni kanallar tapmaq tapşırılıb. Hazırda biz vəziyyəti həll etmək üçün variantlar axtarırıq. Amma bu məsələ həll oluna bilər. Göründüyü kimi, Rusiya və Azərbaycan Rusiyanın ”Mir” ödəniş sistemindən istifadəyə dair razılığa gələcəklər.

Bundan əlavə, rublun dollara nisbəti əsasında bağlanmış rubl müqavilələrinin yenidən hesablanmasına ehtiyac var.

Daha problemli başqa bir məsələ, bağlanmış əməliyyatların kreditləşdirilməsi ilə bağlıdır - neçə bank yeni mexanizmlər və Rusiyanın yeni pul siyasətinə keçidi çərçivəsində ikitərəfli əməliyyatlara nə dərəcədə kredit verə bilər ki, bu da rubl və digər valyutalardan maksimum istifadəsini və ilk növbədə dollardan imtinanı nəzərdə tutur.

İkitərəfli əməliyyatların sığortası ilə bağlı problem də var. Bir sıra iri investisiya müqavilələri iri Qərb banklarının sığortasından keçib. Bu, həm də daşıma məsələsinəhava, dəmir yolu və avtomobil nəqliyyatına aiddir. Və burada da bütün bunların necə həyata keçiriləcəyi məsələsi yaranır.

Azərbaycan bu gün Rusiyaya necə kömək edə bilər? Məlumdur ki, Azərbaycan ərazisində bir sıra birgə müəssisələr fəaliyyət göstərir. Və bu gün Azərbaycandakı bütün bu birgə müəssisələrə Rusiyaya tədarükü əngəllənmiş komponentlərin istehsalı, təchizatı üçün qapı kimi baxılmalıdır. Ümumiyyətlə, hasilatın müəyyən hissəsinin Azərbaycana verilməsinin mümkünlüyündən danışmaq olar. Azərbaycan sanksiyalara məruz qalmayıb. Ona görə də belə bir boşluq var- buradakı müəssisələrin istehsalında istifadə etmək və qismən də Rusiyaya təkrar ixrac üçün müəyyən komponentləri ala biləcək Azərbaycan hüquqi şəxslərinin yaradılması. Beləliklə, Azərbaycan çatışmayan materialları Rusiyaya tədarük edə biləcək.

Bəli, Rusiyaya təzyiqlərdən yan keçməyə kömək edən ölkələrə qarşı sanksiyalar tətbiq etmək üçün bu cür manipulyasiyaların Qərb tərəfindən izlənilməsi ilə bağlı müəyyən risklər var. Əsas boşluq ondan ibarətdir ki, Azərbaycan sanksiyalara məruz qalmayıb və digər ölkələrlə, məsələn, Asiya ölkələri ilə bağlı olan maliyyə sistemindən istifadə edə bilər və bu halda heç bir bank monitorinqi manipulyasiyalar qeydə alınmayacaq.

Ümumiyyətlə, Rusiya ona qarşı sanksiyalar tətbiq etməyən dövlətlərlə müxtəlif uzun variasiyalar, qarşılıqlı əlaqə zəncirləri qurmalı olacaq.

Yeri gəlmişkən, məsələn, MDB çərçivəsində keçirilən görüşdə ödənişlərin Çin yuanına çevriləcəyi açıqlanıb. Ümumiyyətlə, sxemlər fərqli ola bilər. Bütövlükdə Azərbaycan Rusiya ilə Qərb arasında Rusiya üçün belə bir iqtisadi ”vasitəçi” kimi çıxış edə bilər.

İndi, hətta Rusiyanın kvazi blokadası şəraitində belə, Qərb sığortaçılarının bizimlə əməkdaşlığı dayandırması səbəbindən öz Rusiya limanlarımızda gəmiçiliklə bağlı problem yaranıb. Və bununla bağlı Azərbaycandan keçən kommunikasiya xətləri məsələsi yenilənir- yəni indi o, nəqliyyat qovşağı kimi öz rolunu, imkanlarını genişləndirəcək. Əvvəllər Şimal-Cənub nəqliyyat dəhlizi və ”Bir kəmər, bir yol” çərçivəsində enlik və meridian xətləri haqqında çox danışılırdı. Bu gün Rusiya ilə Türkiyəni birləşdirən xəttin əhəmiyyəti artır. Əsas diqqət Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə veriləcək. Bu nəqliyyat dəhlizi regionun bütün ölkələrinin- Azərbaycanın, Türkiyənin, İranın ərzaq təhlükəsizliyini təmin edəcək.

Həmçinin burada Rusiya limanlarına alternativ açıla bilər. Lakin Azərbaycanın kommunikasiyalarının infrastruktur imkanları Rusiya limanlarına tam əvəzedici ola bilməyəcək- Rusiyanın yük dövriyyəsi həddən artıq böyükdür. Hər halda yeni kommunikasiyalar qurmaq olar- Türkiyəyə, İrana. Amma bu, bir günün işi və problemin operativ həlli deyil. Böyük miqyaslı yük axınını dərhal yönləndirmək o qədər də asan deyil.

Yeri gəlmişkən, sərhəddə gömrük prosedurlarını sadələşdirən yaşıl dəhlizlər və Aqroekspress layihəsi də Rusiya və Azərbaycana kömək edə bilər.

Yaranan çağırışlara bütün bu cavablar Rusiya-Azərbaycan hökumətlərarası komissiyası tərəfindən işlənməlidir.

**- Bəs gələcəkdə Cənubi Qafqaz ölkələri arasında Zəngəzur dəhlizinin və digər nəqliyyat kommunikasiyalarının açılması bu vəziyyətdə kömək edə bilərmi?**

- Gələcək üçün - Zəngəzur dəhlizi Azərbaycanla Türkiyəni, Rusiya ilə Ermənistanı, İranı birləşdirəcək çox mühüm layihədir. Eləcə də 3+3 əməkdaşlıq layihəsi. Amma bu dəhliz və bu format gələcəyin məsələsidir. Və problemi burada və indi həll etmək lazımdır.

**-Ümumiyyətlə, ”üzdə olanlardan” danışsaq, mənə elə gəlir ki, Azərbaycan ticarət turizmini inkişaf etdirə bilər...**

- Doğrudan da, bir çox Qərb şirkətlərinin Rusiyada fəaliyyətini dayandırdığı və bura məişət texnikası, geyim və daha çox şeylər istehsal edən şirkətlərin daxil olduğu bir şəraitdə ruslar bütün bunları almaq üçün Azərbaycana səfər edə bilər. Üstəlik, Azərbaycan vergidən azad sistem inkişaf etdirir.

**- Dediniz ki, bir çox istehsal müəssisələri Rusiyadan Azərbaycana keçirilə bilər. Rusiyada işləməkdən imtina edən Qərb və digər şirkətlərin məhsullarının Azərbaycan vasitəsilə Rusiya ərazisinə çatdırılması nə dərəcədə realdır. Məsələn, Qərb ölkələrinin istehsal etdiyi dərmanları?**

- Əgər bu varianta icazə verilsə, o zaman riskləri Azərbaycan öz üzərinə götürəcək. Əgər Azərbaycan, məsələn, tədarükçünün məhsullarının sonrakı istifadəsi və tranziti, üçüncü ölkələrə satılması ilə bağlı məsuliyyətdən boyun qaçırdığına dair müqavilə imzalasa, yəqin ki, heç bir problem olmayacaq.

Eyni zamanda, onu da başa düşmək lazımdır ki, Qərb şirkətləri indi Rusiya bazarını tərk edəndə bunu könüllü ediblər. Bu, onların siyasi həmrəylik jesti idi. Hər ay siyasi həmrəylik ikinci və ya üçüncü plana salınacaq və şirkətlər müxtəlif yollarla Rusiya bazarına qayıtmağa çalışacaqlar.

**- Bu yaxınlarda Moodys agentliyi bəyan etmişdi ki, Azərbaycan Ukrayna ətrafında yaranmış böhran fonunda xarici iqtisadi təzyiqlərdən qorunur, Azərbaycan neftin qiymətinin yüksək olması səbəbindən istənilən kəsiri ödəmək iqtidarındadır və maliyyə sabitliyini və valyuta ehtiyatlarını 2012-ci ildə qoruyub saxlaya biləcək. Bu günlərdə ölkə prezidenti İlham Əliyev demişdi ki, vəziyyət belə tələb edərsə, Azərbaycan Respublikası xarici borcunu bir günə ödəyə biləcək...**

- Azərbaycanın valyuta ehtiyatları şəklində kifayət qədər ”təhlükəsizlik yastığı” var. O, pandemiyadan yaxşı xilas oldu. Bu, əsasən karbohidrogenlərin satışından qazanan bir ölkədir və qiymətləri indi rekordlar qırmaqda davam edir. İndi Azərbaycan ərzaq təhlükəsizliyi baxımından ölkədən taxıl və bir sıra məhsulların ixracına məhdudiyyətlər qoyub. İnanıram ki, Azərbaycan bunun öhdəsindən gələcək.

**- Biz görürük ki, Şərq ölkələrini Rusiyaya münasibətlərini dəyişmədilər. Çin, Türkiyə və s. Buraya MDB ölkələri də daxildir- baxmayaraq ki, burada, əlbəttə, hər şey aydındır... Bu gün Çində Lavrov bir daha çinli tərəfdaşların dəstəyini aldı...**

- Düşünürəm ki, biz Rusiyanın Şərqə vektorundan danışa bilərik, hansı ki, şərait onu getdikcə daha çox izləməyə sövq edir. Amma bu, həm də son illərdə artıq həyata keçirilən siyasətin nəticəsidir. Və bu gün biz geosiyasi və geoiqtisadi baxımdan yeni dünyanın formalaşmasının şahidi oluruq ki, burada Rusiyaya qarşı sanksiyalar tətbiq etməyən dövlətlər bir-biri ilə daha böyük ölçüdə qarşılıqlı əlaqədə olacaqlar.

- Bütün qeyd olunanlarla əlaqədar olaraq, Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında müşahidəçi statusu əldə etməsi nə dərəcədə vacibdir? Bakı üçün isə bu məsələ, ölkə prezidentinin dediyi kimi, aktualdır.

- ŞƏT-ə bu yeni yaranan dünyanın bir çox ölkələri daxildir - Rusiya, İran, Çin, Qazaxıstan, Pakistan, Hindistan... Və Azərbaycan bu strukturda öz mühüm yerini tutmalıdır. İnanıram ki, bu, Azərbaycana Çinlə daha da yaxınlaşmağa imkan verəcək, o cümlədən bu, ”Bir kəmər, bir yol” layihəsi - yeni İpək Yolu üzrə əməkdaşlığa təkan olacaq.

***Tərcümə - Elçin Bayramlı***






Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ

# Səs

2 aprel
2022-ci il

# Avropa çempionlarımız Bakıda!



*Azərbaycanın Avropa çempionununda qalib olmuş sərbəst güləşçiləri Vətənə qayıdıb. SİA xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançıları Azərbaycan Güləş Federasiyasının təmsilçiləri, ictimaiyyət nümayəndələri, güləşçilərin yaxınları qarşılayıblar.*

Qeyd edək ki, Azərbaycanın sərbəst güləş üzrə milli komandası Macarıstanın paytaxtı Budapeştdə keçirilən dünya çempionatında tarixi uğura imza atıb. Yarışa tam heyətlə yollanan yığmanın 10 üzvündən 7-si fəxri kürsüyə qalxıb. Məhəmmədxan Məhəmmədov (97 kq) qızıl, Abubakr Abakarov (86 kq) gümüş, Əliabbas Rzazadə (57 kq), Hacı Əliyev (65 kq), Əşrəf Aşırov (79 kq) gümüş, Turan Bayramov (74 kq) və Osman Nurməhəmmədov (92 kq) isə bürünc medal qazanıb. Yekunda 159 xal toplayan yığma komanda hesabında Avropa çempionu olub.

**Banuçiçək Hüseynli**



# Sağlam beyin üçün nə etməliyik?

MARAQLI FAKTLAR

***Hamımız psixi sağlamlığımızı qorumaq və həyatımız boyu zehni fəaliyyətimizi ən yüksək səviyyədə saxlamaq istəyirik. Sağlam beyin üçün bədənimizə yaxşı qulluq etmək çox vacibdir. SİA xarici mətbuata istinadən xəbər verir ki, daimi idman etmək, nizamlı yuxu rejiminə sahib olmaq, stressdən mümkün qədər uzaq olmaq beyin sağlamlığı üçün çox əhəmiyyətlidir. Qidalanmada etdiyimiz səhvlər sinir sistemimizə də mənfi təsir göstərir.***

Bəzi qidalar psixi sağlamlığımızı qoruyur, yaddaşımızı gücləndirir və beləliklə də həyat keyfiyyətimizi yaxşılaşdırır. Böyürtkən, qara tut, moruq, çiyələk, qaragilə və zoğal digər giləmeyvələrə nisbətən daha çox antioksidant ehtiva edir. Bu meyvələr hüceyrə zədələnməsinə qarşı qoruyucu olan flavonollar, antosiyaninlər ilə zəngindir. Bunlar yaddaş itkisinin inkişafını yavaşladan yeganə meyvə qrupudur.

1 stəkan təzə qırmızı meyvə 1 porsiya meyvəni əvəz edir.

Omeqa-3 beyin sağlamlığı üçün çox vacibdir. Balıqlar arasında ən çox omeqa-3 ehtiva edən qızılbalıq, sardina, siyənək, skumbriya və tuna kimi soyuq su balıqlarıdır. Bu balıqları həftədə ən az 2 dəfə istehlak etmək yaddaşınızı gücləndirəcək və sonrakı həyatda sizi demans xəteliyindən qoruyacaq.

**L. Əlizadə**

# "Mançester Yunayted" Fernandeşlə müqavilanı yeniləyib



"Mançester Yunayted" futbolçusu Bruno Fernandeşlə müqaviləni yeniləyib. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. Tərəflər 2026-cı ilin yayınadək sözləşmə imzalayıblar. Portuqaliyalı yarımmüdafiəçinin əvvəlki müqaviləsi 2025-ci ilədək nəzərdə tutulmuşdu. Qeyd edək ki, Bruno 2020-ci ildən "qırmızı şeytanlar"da oynayır.

# ŞOK: Ukraynada arı sürüsü 3 rus əsgərini öldürdü!

***Fevralın 24-də Ukraynaya hücuma başlayan Rusiya qüvvələri ağır itkilər verməkdə davam edir. SİA xarici mətbuata istinadən xəbər verir ki, bu dəfə onların itkisinin səbəbi Ukrayna ordusu deyil, arılardır.***



Ukraynanın yerli xəbər saytlarından birinin məlumatına görə, Oleşkovski rayonunda düşərgə salan rus əsgərlərinə arı sürüsü hücum edib. Arıların hücumu o qədər güclü olub ki, 3 rus əsgəri ölüb, 25-i isə müalicə üçün xəstəxanaya yerləşdirilib. Bu, rus əsgərlərinin təbiətlə də döyüşdüyünün ilk sübutu deyil. Ukraynaya hücumdan əvvəl bir cüt vəhşi qazın Rusiya ordusunun təyyarəsini bataqlığa saldığı iddia edilib.

Rus əsgərlərinə hücum edən arı növləri haqqında dəqiq məlumat yoxdur, lakin Avropada təhlükəli arı növlərinə rast gəlinmədiyi məlumdur.

**Ləman**

# Bu gün 29 dərəcə isti olacaq



Bakıda və Abşeron yarımadasında aprelin 2-də hava şəraiti dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün bəzi yerlərdə zəif duman olacaq.

Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu gecə 7-10° isti, gündüz 15-19° isti, Bakıda gecə 8-10° isti, gündüz 16-18° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 757 mm civə sütununa enəcək. Nisbi rütubət 60-70 % olacaq.

Azərbaycanın rayonlarında bu gün havanın əsasən yağmursuz keçəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-11° isti, gündüz 24-29° isti, dağlarda gecə 1-6° isti, gündüz 12-17° isti olacaq.

## Başsağlığı

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdindəki "Neftin, qazın Geotexnoloji Problemləri və Kimya Elmi Tədqiqat İnstitutunun kollektivi elmi işlər üzrə direktor müavini, "Layların Neft Hasilatının Artırılmasının Fiziki - kimyəvi Üsulları" laboratoriyasının müdiri, kimya elmləri doktoru,

**Usubaliyev Bəybala Tacı oğlunun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin***

## ELAN

**Yardımlı rayon Şıxlar kənd orta məktəbi tərəfindən Zamanov Teymur Xanverdi oğlunun adına verilmiş attestat itdiyi üçün etibarsız sayılır.**


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**